

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Suveren, demokratik və hüquqi dövlət




5

SƏS
№ 092 (6775)
26 may 2023-cü il.
Qiymәti 60 qәpik

# Moskvada üçtərəfli Zirvə görüşü olub



Mayın 25-də Moskvada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasının Prezidenti Vladimir Putin və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan ilə üçtərəfli Zirvə görüşü olub.

# Ermənistan TARİXİ SEÇİM QARŞISINDA




4

## Azad torpaqlarımız: Qədim mədəniyyət mərkəzi Cəbrayıl müasir həyata doğru




8

## Avtomobillərin qiyməti hansı hallarda ucuzlaşacaq?



16

## Onda Müəllim "Allah" idi



12

## Əhalinin sosial müdafiəsi: yeni yanaşma və ənənəvi metodlar



7

## Gələn ay ardıcıl 7 gün tətil olacaq



16

# Azərbaycan Prezidenti: "Biz tam iqtisadi müstəqilliyə nail olmuşuq"

*Prezident İlham Əliyev Moskvada Ali Avrasiya İqtisadi Şurasının geniş tərkibdə iclasında iştirak edib*






Dünən Moskvada Ali Avrasiya İqtisadi Şurasının geniş tərkibdə iclası keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə qonaq qismində iştirak edib. Dövlətimizin başçısı iclasda çıxış edib. Azərbaycan Prezidenti İlham Əliyev iclasda çıxış edərkən qeyd edib ki, Ermənistan istisna olmaqla, Azərbaycanın Avrasiya İqtisadi Birliyinin üzvləri ilə əməkdaşlığı 30 il ərzində uğurla inkişaf edir.

İclasda qonaq qismində iştirak edən dövlətimizin başçısı çıxışında daha sonra bildirib: "Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılması üçün ərazi bütövlüyünün və suverenliyin qarşılıqlı şəkildə tanınması əsasında ciddi imkanlar var". Dövlətimizin başçısı qeyd edib ki, ötən il Azərbaycanın Avrasiya İqtisadi Birliyi ilə əmtəə dövriyyəsi 31 faiz artıb və 4,7 milyard dollar təşkil edib. Bu ilin yanvar-aprel aylarında qarşılıqlı ticarətin həcminin daha 38 faiz artdığını söyləyən dövlətimizin başçısı deyib: "Ötən il Avrasiya İqtisadi Birliyinə üzv ölkələrin Azərbaycanın xarici ticarət dövriyyəsində payı 9 faizə yaxın olub. Biz əmtəə dövriyyəsinin gələcək artımında böyük potensialın olduğunu görürük. Bundan başqa, Azərbaycanın gəmiqayırma imkanları bu gün, həmçinin bizim Xəzərdəki qonşularımıza da təqdim olunub. Bakı gəmiqayırma zavodunda bizim Xəzər üzrə qonşularımızın sifarişlərinin qəbul edilməsi üzrə danışıqlar və fəal iş aparılır. Azərbaycan "Şimal-Cənub" nəqliyyat dəhlizi layihəsinin fəal iştirakçısıdır. Bakı-Tbilisi-Qars dəmir yolunun Avropaya, həmçinin Türkiyənin Aralıq dənizi limanlarına çıxışı təmin etdiyini vurğulayan dövlətimizin başçısı bildirib: "Biz, həmçinin ölkənin əsas hissəsini Naxçıvan Muxtar Respublikası ilə birləşdirəcək, həm də beynəlxalq dəmir yolu marşrutlarının bir hissəsi olacaq Zəngəzur dəhlizinin yaradılması təşəbbüsünü irəli sürmüşük".

Azərbaycan Prezidenti qeyd edib ki, Azərbaycanda 8 beynəlxalq aeroport fəaliyyət göstərir. Onlardan ikisi işğaldan azad olunmuş torpaqlarda – Füzuli və Zəngilanda son iki ildə tikilib. Doqquzuncu beynəlxalq aeroport azad olunmuş Laçında tikilir və 2025-ci ildə istismara veriləcək. "Ölkəmiz illik 500 min ton yük dövriyyəsi ilə regionda ən iri hava yük donanmasına malikdir", - deyə Azərbaycan Prezidenti vurğulayıb.

Azərbaycan Prezidenti diqqətə çatdırıb ki, Azərbaycan iqtisadiyyatı müstəqilliyin demək olar ki, bütün dövrü ərzində dayanıqlılıq və artım nümayiş etdirir. Biz tam iqtisadi müstəqilliyə nail olmuşuq. Bu da bizim uğurla həyata keçirdiyimiz müstəqil xarici siyasət kursunu aparmaq imkanının mühüm amilidir. "Təxminən dörd ildir Azərbaycan Qoşulmama Hərəkatına uğurla sədrlik edir. Qoşulmama Hərəkatı Birləşmiş Millətlər Təşkilatından sonra sayca ikinci beynəlxalq təsisatdır", - deyə dövlətimizin başçısı bildirib.

# Vladimir Putin: "Rusiya-Azərbaycan münasibətləri yüksək səviyyədədir"

*Moskvada Prezident İlham Əliyevin Prezident Vladimir Putinlə görüşü olub*



***Mayın 25-də Moskvada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasının Prezidenti Vladimir Putinlə görüşü olub. Görüşdə çıxış edən Rusiya Prezidenti Vladimir Putin qeyd edib ki, ikitərəfli əsasda götürüldükdə ümumilikdə Rusiya-Azərbaycan münasibətləri yüksək səviyyədədir:***

- Hörmətli İlham Heydər oğlu. Hörmətli həmkarlar.

İlk növbədə, Sizi bir daha salamlamaq və Azərbaycan Prezidentinə Avrasiya İqtisadi Birliyi çərçivəsində bizim bugünkü görüşümüzə qoşulması qərarını qəbul etdiyi üçün təşəkkür etmək istəyirəm. Artıq dediyim kimi, formal olaraq qonaq qismində, lakin həqiqətən, İlham Heydər oğlu haqlıdır, bu, çox şərti addır, çünki Azərbaycan ilə Avrasiya İqtisadi Birliyinin iştirakçısı olan bütün ölkələr arasında münasibətlərin səviyyəsi və xarakteri ciddi, dərin məna daşıyır. İqtisadi-ticari əlaqələr ardıcıl şəkildə inkişaf edir və bütün xalqlarımız arasında münasibətlərin möhkəmlənməsi istiqamətində irəliləyir. Mən çox istərdim ki, gələcəkdə də belə davam etsin, çünki regional əməkdaşlıq potensialı çox yüksəkdir.

İkitərəfli əsasda götürüldükdə ümumilikdə Rusiya-Azərbaycan münasibətləri yüksək səviyyədədir, həmçinin ardıcıl olaraq, bərabərhüquqlu prinsiplərlə, bir-birinin maraqlarını nəzərə almaqla və 2022-ci ilin fevralında imzalanmış Müttəfiqlik Qarşılıqlı Fəaliyyəti haqqında Bəyannaməyə uyğun şəkildə inkişaf edir. Biz hamımız buna çox şadıq.

Bu il Heydər Əlirza oğlu Əliyevin 100 illiyi bayram edilir. Siz həm Sovet İttifaqının, həm də müstəqil Azərbaycanın bu siyasi xadiminə bizim münasibətimizi bilirsiniz. Bu görkəmli siyasi xadim ölkələrimizin tarixində birləşdirici simadır. O da yaxşı məlumdur ki, biz Rusiyada bu yubileyi layiqincə qeyd etdik. Dövlət Dumasında və Federasiya Şurasında sərgilər keçirildi, televiziyada sənədli filmlərin nümayişi oldu. Rusiya Federasiyasının regionlarında da çoxlu tədbirlər oldu. Bu tədbirlər təkcə paytaxtda keçirilmədi, həmçinin Heydər Əliyevin daim xatırlandığı Kazanda, Həştərxanda, Dağıstanda, BAM-da, o cümlədən Moskva-Tında qatarının təntənəli yola salınması və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi BAM-ın tikintisinə kuratorluq edən Heydər Əliyevin adının verildiyi Anqoya stansiyasında da tədbirlər oldu. Bunlar mənim əvvəldə söyləmək istədiklərimdir və mətbuat çıxandan sonra biz başqa məsələlər barədə də danışarıq. Buyurun.

Azərbaycan Prezidenti İlham Əliyev:

- Çox sağ olun, hörmətli Vladimir Vladimiroviç. İlk növbədə, Avrasiya İqtisadi Birliyinin sammitinə dəvətə görə bir daha təşəkkürümü bildirirəm.

Bu gün qeyd olunduğu kimi, mən bu təşkilatın sammitində ilk dəfədir iştirak edirəm. Baxmayaraq ki, biz artıq həmkarlarla fikir mübadiləsi aparmışıq, həm Müstəqil Dövlətlər Birliyinin, həm də digər beynəlxalq təşkilatların platformalarında və əlbəttə, ikitərəfli formatda müntəzəm işləyirik.

Heydər Əliyevin xatirəsinə göstərilən yüksək hörmətə görə təşəkkür etmək istərdim. Biz bunu yüksək dəyərləndiririk, Azərbaycanda bütün bunları çox yaxşı bilirlər. Sizin qeyd etdiyiniz kimi, yubiley tədbirləri həm Moskvada, həm dövlət hakimiyyət təsisatlarında, həm də regionlarda keçirilib. Onu deməliyəm ki, Heydər Əliyev və Siz, Vladimir Vladimiroviç, Rusiya ilə Azərbaycan arasında münasibətlərin hazırkı səviyyəsinin əsasını qoymusunuz. Məhz Sizin 2001-ci ildə Azərbaycana səfərinizdən sonra münasibətlər keyfiyyətcə yeni səviyyəyə yüksəldi və biz bu gün artıq bu münasibətləri müttəfiqlik qismində təkcə de-fakto deyil, həm də de-yure səciyyələndiririk. Siz qeyd etdiyiniz kimi, ötən ilin əvvəlində biz Müttəfiqlik Qarşılıqlı Fəaliyyəti haqqında Bəyannamə imzaladıq və icra edirik. Bu, bizim münasibətlərimizin ruhunu və xarakterini, ölkələrimizin daha sıx qarşılıqlı əlaqələrə səylərini əks etdirən mühüm siyasi sənəddir.

Əlbəttə, biz bu gün regional məsələlərdən də danışacağıq. Fürsətdən istifadə edərək, Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılması işində səylərinə görə Rusiya tərəfinə minnətdarlığımızı bildirmək istərdim. Biz bu səyləri çox yüksək dəyərləndiririk. Bu gün keçiriləcək üçtərəfli görüşdə Sizin iştirakınız da Azərbaycan və Ermənistanın nəhayət sülh razılaşmasına gəlməsinə Rusiya Federasiyasının necə böyük əhəmiyyət verdiyini göstərir. Fikrimcə, Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanıması barədə Ermənistan rəhbərliyinin bu yaxınlardakı bəyanatlarından, eləcə də Azərbaycan Respublikasının sahəsini konkret rəqəmlərlə göstərməklə Azərbaycanın ərazi bütövlüyünün tanınmasından sonra sülh sazişinin digər maddələrinin razılaşdırılması məsələsi daha asan olacaq. Çünki bu, başlıca amil idi ki, biz razılığa gələ bilmirdik.

Vladimir Vladimiroviç, bir daha ümid edirəm ki, bu gün biz üçtərəfli formatda da iki ölkə arasında münasibətlərin normallaşdırılması istiqamətində daha bir addım atacağıq. İkitərəfli gündəliyə gəlincə, o, kifayət qədər genişdir. Onu ətraflı nəzərdən keçirəcəyik. Dəvətə görə bir daha sağ olun.



# Azərbaycan xarici investorlar üçün cəlbedici ölkədir

## İLHAM ƏLİYEV: "Biz Azərbaycanın və Litvanın biznes subyektləri və sahibkarları arasında təmaslara böyük əhəmiyyət veririk"

***Dövlət başçısı İlham Əliyev Azərbaycan-Litva biznes forumunda Azərbaycanın uğurla həyata keçirdiyi şaxələndirmə siyasətindən geniş bəhs edərək bildirmişdir ki, biznes forum planlarımız, ölkəmizdəki biznes mühiti, sərmayə də daxil olmaqla imkanlar haqqında bir-birimizi məlumatlandırmaq, həmçinin işgüzar əlaqələr qurmaq üçün yaxşı fürsətdir. Prezident İlham Əliyev mayın 22-də Vilnüsdə Azərbaycan-Litva biznes forumunun açılış mərasimindəki çıxışında deyib ki, biz Azərbaycanın və Litvanın biznes subyektləri və sahibkarları arasında təmaslara böyük əhəmiyyət veririk: "Bir il ərzində ölkə rəhbərlərinin ikinci dəfə biznes forumda çıxış etməsi faktı ölkələrimizin biznes subyektləri və sahibkarları arasında təmaslara böyük əhəmiyyət verdiyimizin təzahürüdür".***

”Hesab edirəm ki, Prezident Nauseda ilə əməkdaşlığımız üçün çox güclü bünövrə qoymuşuq, çox fəal siyasi dialoq qurmuşuq. Artıq söylədiyim kimi, biz ötən ilin mayında Bakıda görüşdük. Sonra bu ilin yanvarında Davosda görüş keçirdik. İndi isə Vilnüsdə görüşürük. Bu, həqiqətən əməkdaşlığımızın dinamik xarakterini göstərir. İndi isə biznes icmaları üçün qarşılıqlı surətdə faydalı və məhsuldar əməkdaşlığı ehtiva edən uzun perspektivli plan üçün vaxt yetişib”, - deyə dövlətimizin başçısı bildirib.

Bəli, bu gün xarici investorlar üçün Azərbaycan çox cəlbedici ölkədir. Özlüyündə yaranan ”Nəyə görə” sualına cavab olaraq qeyd edə bilərik ki, təkcə yaxşı investisiya iqliminin olması şərt deyil. Bu sualı cavablandırmaq üçün Azərbaycanın dövlət müstəqilliyini yenidən bərpasından sonra ölkəmizdə mövcud ictimai-siyasi vəziyyətə və bu fonda xarici iş adamlarının tərəddüdlərinə diqqət yetirək. O zaman Azərbaycandakı ictimai-siyasi durumun gərginliyi ölkəmizlə iqtisadi əlaqələrin qurulmasında maraqlı olan dövlətlərin tərəddüdlərinə səbəb olurdu. Bu fakt da hər kəsə məlumdur ki, Azərbaycan daim yerləşdiyi coğrafi məkana və malik olduğu təbii resurslara görə dünyanın diqqətində olub. Bu marağın müxtəlif dövrlərdə fərqli olması də inkaredilməzdir. 1993-cü ildə ulu öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra ölkəmizdə sabitliyin yaradılması, həyata keçirilən ”açıq qapı” siyasəti investorlarda bu tərəddüdlərin aradan qalxmasında əhəmiyyətli rol oynadı. Ümummilli Lider bildirirdi ki, ölkəmizin qapısı bura xoş niyyətlə ayaq basan hər bir xarici iş adamının üzünə açıqdır. Bu çağırış da edilirdi ki, investorlar qoyacaqları vəsaitin təhlükəsizliyinə tam əmin ola bilərlər. Bunları yenidən təhlil etməyimizə səbəb əvvəldə qeyd etdiyimiz ”Nəyə görə” sualını cavablandırmaqdır. Çünki bu gün Azərbaycan sabitlik məkanıdır və investorlar ancaq sabit olan yerlərə sərmayə qoyurlar. Bu inam da bir daha təsdiqləyir ki, gələcəkdə daha çox xarici sərmayədar Azərbaycana investisiya qoymaq üçün bizə müraciət edəcək.

### AZƏRBAYCANDA BİZNES MÜHİTİNİN YAXŞILAŞDIRILMASI İSTİQAMƏTİNDƏ BU GÜN ÇOX CİDDİ ADDIMLAR ATILIB

Bəli, Prezident İlham Əliyevin çıxışlarında vurğuladığı kimi, müstəqillik, iqtisadi inkişaf yolu ilə irəliləyən Azərbaycanın iqtisadi böhrandan ən az itki ilə çıxması üçün yerli resurslardan istifadə imkanları və daxili potensialı tükənməzdir: ”Azərbaycanda biznes mühitinin yaxşılaşdırılması istiqamətində bu gün çox ciddi addımlar atılıb. Deyə bilərəm ki, sahibkarlar bu işlərə artıq böyük ruh yüksəkliyi ilə qoşulurlar. Ölkəmizdə böyük ruh yüksəkliyi var, xüsusilə kənd təsərrüfatı, emal və sənaye sektorlarında. Bakıda, böyük şəhərlərdə, bütün şəhər və rayonlarımızda çox böyük fəallıq müşahidə olunur. Bu da əlbəttə ki, həm bizim siyasətimizin təzahürüdür, - çünki özəl sektor sahibkarlığının inkişafı üçün çox ciddi addımlar atılıb, - eyni zamanda, bizim sahibkarlarımızın da məsuliyyətini göstərir. Sahibkar qazandığı vəsaiti ölkə iqtisadiyyatına qoymalıdır”. Dövlət başçısı bu məqamı da xüsusi qeyd edir ki, əgər bizdə bu güclü təbii resurs olmasaydı, qeyri-neft sektorunu nəyin hesabına inkişaf etdirə bilərdik?

Göründüyü kimi, bu gün daxili investisiyaların həcmi artmaqdadır. Bu, sözsüz ki, dövlətimizin sahibkarlığın inkişafına diqqət və qayğısından irəli gəlir. Ötən 19 ildən artıq dövr ərzində iki milyondan artıq yeni iş yerinin açılması işsizlik, məşğulluq probleminin həllinə öz müsbət təsirini göstərir. Hazırda Azərbaycan kredit reytinqinin səviyyəsinə görə MDB məkanında ən irəlidə gedən ölkələrdəndir. Dünya İqtisadi Forumu inkişafın Azərbaycan modelinin mövcudluğunu təsdiqləməklə yanaşı, bu reallığı da diqqətə çatdırır ki, uzunmüddətli iqtisadi uğurlara nail olmaq üçün əməkdaşlıq zəruridir. Hər bir ölkənin öz inkişaf strategiyası olduğunu nəzərə alsaq, səylərin birləşdirilməsinin, təcrübə mübadiləsinin genişləndirilməsinin vacibliyi daha qabarıq şəkildə özünü büruzə verər. Azərbaycanın iqtisadi inkişafın istiqamətini enerji sektorundan qeyri-enerji sektoruna yönəltməsi yüksək dəyərləndirilir, gələcək üçün uğurlu addım kimi önə çəkilir. Dövlətimizin başçısı İlham Əliyev dünyanın biznes icmasına özümüzü nəinki mühüm coğrafi mövqeyə və təbii sərvətlərə malik, o cümlədən islahatlara, dəyişikliklərə və şaxələndirməyə sadiq ölkə kimi təqdim etməyin vacibliyini bildirir.

### HAZIRDA ƏSAS HƏDƏFİMİZ İQTİSADİYYATI ŞAXƏLƏNDİRMƏKDİR

Prezident İlham Əliyev Vilnüsdə Azərbaycan-Litva biznes forumunun açılış mərasimindəki çıxışında onu da vurğulayıb ki, Azərbaycan iqtisadiyyatı sabitdir, münbit investisiya şəraiti var və o, təbii sərvətlərə əsaslanır. Lakin hazırda, eyni zamanda, əsas hədəf şaxələndirmədir. Dövlətimizin başçısı, həmçinin bildirib ki, bu gün Azərbaycanda iqtisadiyyatımızı şaxələndirə biləcəyik: ”Düşünürəm ki, biz iqtisadiyyatımızı xeyli şaxələndirə biləcəyik və enerji sektorundan asılılığı azaldacağıq. Baxmayaraq, enerji sektoru enerji təhlükəsizliyimizdə və Avropanın enerji təhlükəsizliyində öz mühüm rolunu oynamağı davam etdirəcək”.

Dövlət başçısı forumun açılış mərasimində çıxışı zamanı Azərbaycan iqtisadiyyatının sabitliyinin regional iqtisadi əməkdaşlıq üçün mühüm amil olduğunu deyib: ”Bizim xarici borcumuz çox aşağıdır, ümumi daxili məhsulun 10 faizindən də azdır. Milli valyutamız sabitdir. Əminəm ki, sabit qalacaq, çünki xarici ticarət balansında artıqlıq yaranıb. Bu, kifayət qədər böyük həcmdir”.

“Dövlət Neft Fondumuzda topladığımız valyuta ehtiyatlarımız və Mərkəzi Bankın ehtiyatları xarici borcu on dəfədən çox üstələyir. Beləliklə, iqtisadiyyatımızın sabitliyi regional iqtisadi əməkdaşlıq və sərmayə mühiti üçün mühüm amildir, çünki münbit investisiya mühiti təkcə yaxşı qanunvericiliyin yazılması ilə şərtlənmir”, - deyə Azərbaycan Prezidenti bunu şərtləndirən amillər barədə fikirlərini söyləyib: ”Təbii ki, bunu şərtləndirən amillər var. Azərbaycanın işğal altında olan torpaqları azadlığa qovuşub. Hər bir ərazimiz özünəməxsus potensiala malikdir. Onlardan səmərəli istifadə etmək məqsədilə həm Prezidentin müvafiq Fərmanı ilə iqtisadi rayonların yeni bölgüsü həyata keçirildi, həm də ”Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” təsdiqləndi.

”Hazırda əsas hədəfimiz iqtisadiyyatı şaxələndirməkdir”,-deyən Azərbaycan Prezidenti İlham Əliyev onu da vurğuladı ki, Azərbaycan iqtisadiyyatı sabitdir, münbit investisiya şəraiti var və o, təbii sərvətlərə əsaslanır. Lakin hazırda, eyni zamanda, əsas hədəf şaxələndirmədir. ”Düşünürəm ki, biz iqtisadiyyatımızı xeyli şaxələndirə biləcəyik və enerji sektorundan asılılığı azaldacağıq. Baxmayaraq, enerji sektoru enerji təhlükəsizliyimizdə və Avropanın enerji təhlükəsizliyində öz mühüm rolunu oynamağı davam etdirəcək”,-deyən dövlətimizin başçısı bildirdi ki, ə, iqtisadiyyatımızın sabitliyi regional iqtisadi əməkdaşlıq və sərmayə mühiti üçün mühüm amildir.

### TEZLİKLƏ QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR TEZLİKLƏ BÖYÜK İNVESTİSİYALAR MƏKANINA ÇEVRİLƏCƏK

Bəli, bu gün işğaldan azad edilmiş ərazilərimizin malik olduqları potensial imkanlardan istifadə etmək imkanlarına malikik. Tezliklə Qarabağ və Şərqi Zəngəzur tezliklə böyük investisiyalar məkanına çevriləcək. Dövlət başçısı İlham Əliyev bütün çıxışlarında bu çağırış xüsusi yer tutur ki, siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. İqtisadiyyatın inkişafı və insanların sosial rifah halının yüksəldilməsi məqsədilə Azərbaycan Prezidentinin təşəbbüskarı olduğu qanun layihələri, həmçinin imzaladığı fərman və sərəncamlar əsasında həyata keçirilən sosial layihələr vətəndaşlarımızın yaşayış səviyyəsinə öz müsbət təsirini göstərir. 2003-cü ildə açıqlanan hədəflər sırasında Azərbaycanın dayanıqlı iqtisadi inkişafının təmin edilməsi əsas yer tutdu.

Dövlət başçısı İlham Əliyev “Neft kapitalını insan kapitalına çevirək!” tezisini irəli sürdü və bu istiqamətdə mühüm addımlar atır. İqtisadi artımın neft sektorundan asılılığını minimuma endirmək üçün regionların malik olduğu imkanlardan maksimum bəhrələnmək məqsədilə Regional inkişaf proqramları təsdiqləndi və icra edilir. Bununla da regionlarımızın yeni mənzərəsi yaradıldı. Prezident İlham Əliyevin rəhbərliyi ilə görülmüş genişmiqyaslı işlər, sistemli və ardıcıl tədbirlər, dərin islahatlar nəticəsində hazırda Azərbaycan siyasi və makroiqtisadi baxımdan sabit, təhlükəsiz ölkə, regionun siyasi, iqtisadi və mədəni mərkəzi, irimiqyaslı enerji, nəqliyyat və infrastruktur layihələrinin təşəbbüskarı və fəal iştirakçısı, Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində etibarlı tərəfdaş, dünya kosmos ailəsinin üzvü, mühüm tranzit qovşağıdır.

Ölkəmizin iqtisadi qüdrətinin artması vətəndaşların sosial rifahının yüksəldilməsinə yönəlmiş layihələrin həyata keçirilməsinə zəmin yaradıb. Azərbaycanda sürətli inkişaf təbii olaraq, dövlət quruculuğunun bütün sahələrinə, o cümlədən sosial sferaya ciddi sirayət edib və bir çox sosial proqram və layihələrdə real əksini tapıb. Ən önəmli istiqamətlərindən biri ölkəmizdə qaçqın və məcburi köçkünlərə 30 ilə yaxın bir dövr ərzində göstərilən qayğıdır. Son iki ildə ölkəmizin həyatında yeni dövr başlayıb. Belə ki, dövlət başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, Azərbaycan Ordusunun gücü, qüdrəti sayəsində qazanılan tarixi Zəfərimizin reallıqları fonunda işğaldan azad edilmiş ərazilərimizdə genişmiqyaslı bərpa-quruculuq işləri həyata keçirilir. Böyük Qayıdış proqramının uğurlu icrası tezliklə bu ərazilərimizə yeni nəfəsin gələcəyinə, malik olduqları iqtisadi potensialdan səmərəli istifadə nəticəsində ölkəmizin dayanıqlı inkişafına böyük töhfələr veriləcəyinə inamı artırır.

Azərbaycanın uğurlu neft siyasətinin məntiqi davamı kimi dəyərləndirilən qeyri-neft sektorunun inkişafı prioritetdir. Bununla yanaşı. Azərbaycanın enerji sektorunda da uğurları davamlılığı ilə diqqət çəkir. 2006-ci ildə çoxlarına əfsanə kimi görünən Bakı-Tbilisi-Ceyhan neft, 2007-ci ildə Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri istifadəyə verildi. 2017-ci ildə “Yeni əsrin müqaviləsi” imzalandı. Ölkəmizin beynəlxalq nüfuzunu artıran Cənub Qaz Dəhlizi tam tərkibdə istifadəyə verildi. Təbii ki, bunlara əsas yaradan ulu öndər Heydər Əliyevin düşüşnülmüş, gələcəyə hesablanmış siyasəti və son 19 ildə bu xəttin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirməsidir. Hər bir vədini əməli fəaliyyəti ilə təsdiqləyən Prezidentə xalqın sevgisi şəksizdir. Möhtərəm Prezidentimiz İlham Əliyev Azərbaycanı gücləndirdi, qalibiyyətimizi şərtləndirən bütün amillərin yaradılmasına nail oldu. Qarabağ və Şərqi Zəngəzur tezliklə böyük investisiyalar məkanına çevriləcək.

Bir sözlə, bu gün Azərbaycan beynəlxalq maliyyə qurumlarının hesabatlarında da liderliyini qoruyur. Dünya Bankı Azərbaycanı ən islahatçı ölkələr sırasında qeyd edir. Qarşıdakı dövrdə ölkəmiz daha möhtəşəm uğurları, iqtisadi göstəriciləri ilə diqqətdə olacaq.

***RƏFİQƏ KAMALQIZI***

# Ermənistan TARİXİ SEÇİM QARŞISINDA

***Sözünü dəyişməkdə öz "ustalığı" ilə seçilən Ermənistanın baş naziri Nikol Paşinyan son həftələrdə deyəsən hansısa məqamlara əl atmaq, etiraflar etmək məcburiyyətində qalıb və bildirib ki, Azərbaycan ərazisi kimi tanıdığı 86 min 600 kvadrat kilometr əraziyə Qarabağ da daxildir. Erməni baş nazirin 2019-cu ildəki mövqeyi ilə hazırkı mövqeyi 180 dərəcə fərqlidir. Amma görünür, "yeni müharibə, yeni ərazilər", yaxud "Qarabağ Ermənistandır, nöqtə" deməklə, Şuşada sərxoş vəziyyətdə atılıb-düşməklə, rəqs etməklə nə böyüklüyündə səhvə yol verdiyini anlayıb və ən azından, daha belə səhvlər etməmək niyyətində görünür.***




Biz 3 ilə yaxındır ki, Paşinyanın inadkarlıqla danışıqlardan yayındığının, qeyri-müəyyən bəyanatlar verdiyinin, vədlərindən, danışıqlardan geri çəkildiyinin şahidiyik. Onun da şahidiyik ki, xaricdən silah almaq və bununla da Ermənistan silahlı qüvvələrini canlandırmaq üçün bu buqələmüm xislətli baş nazir əldən-ayaqdan gedir. Sözsüz ki, Nikolun hərbi büdcəni artırması da təsadüfi deyildi və bunun arxasında nəyin dayandığını hər kəs başa düşür. Bir çox əlaqələr qurmaq üçün müxtəlif addımlar atması guya millətin ruhunu yüksəltməyə xidmət edirdi, amma bu ruh ordu, güc və arsenal olmadan onun elə öz başına dəysin. Təsadüfi deyildi ki, bu müddət ərzində danışıqlar gedə-gedə Ermənistan tərəfi şərti sərhəddə təxribatlar törətməkdə davam edirdi və bundan Paşinyanın xəbəri olmaya bilməzdi, əksinə, elə onun çabalaması kimi başa düşülür. Məsələ burasındadır ki, bu çabaların nəticə verməyiyini başa düşən erməni baş nazir sonda dediklərinin əskini ifadə etdi və bu onun etirafları idi. "Qarabağ Azərbaycandır", deməyə məcbur qalan Paşinyan əslində, doğru danışmağı öyrənmək yoluna baş vurub bəlkə də, amma hər bir halda, ölkəsinin tarixi qərar astanasında, daha dəqiq desək, tarixi seçim qarşısında olduğunun deyəsən fərqindədir.

Təbii ki, sözünü dəyişmək Vovayeviçə xas olan xarakterik xüsusiyyətdir, amma bunu ona məcbur edən, onu 180 dərəcə döndərən Azərbaycan dövlətinin qüdrəti, Ali Baş Komandanın, cənab Prezident İlham Əliyevin siyasi iradəsi, qətiyyəti, milli maraqlarımıza, ərazi bütövlüyümüzə verdiyi dəyər və bütün müstəvilərdə qələbələrimizdir. Rəsmi İrəvan,ələlxüsus da erməni baş nazir çox yaxşı bilir və görür ki, Azərbaycan beynəlxalq hüququn legitim dəstəyindən istifadə edir. Bəli, ölkəmiz dünya və regional güclərlə strateji əlaqələr qurdu, eləcə də Silahlı Qüvvələrinin bütün gücündən, imkanlarından istifadə edərək Paşinyanı əvvəlcə kapitulyasiya sənədini imzamalamağa, sonra sözünü dəyişməyə, yeni geosiyasi reallığı qəbul etməyə məcbur etdi. Ermənistan rəhbəri başa düşmək məcburiyyətində qaldı ki, artıq bu seçim tarixi bir seçimdir və yanlışlıq ölkəsini tarixin arxivinə ata bilər.

Doğrudur, Paşinyanın ifadələri hələ ki, sözdən ibarətdir və sözünü də, mövqeyini də asanlıqla dəyişmək "bacarığı" ilə seçilən bu adamın ipinin üstünə yük qoyulası da deyil. Müharibədən əvvəl də, müharibə dönəmində də, müharibədən sonra da onun gah bir söz, gah da həmin sözün əksini ifadə edən başqa söz dediyi hər kəsə məlumdur və bunu da nəzərə almaq lazımdır. Yəni nəzərə almaq lazımdır ki, sözünü dəyişəcəyi təqdirdə bu, bütövlükdə Ermənistan dövlətinin olmayan beynəlxalq imicini tamamilə yerlə-yeksan etmək deməkdir. Çünki baş nazir Ermənistanda dövlətin birinci şəxsidir və onun bəyan etdikləri sıradan bir söz deyil və əgər buna sıradan bir söz kimi yanaşılsa, beynəlxalq ictimaiyyət rəsmi İrəvan haqda tamamilə fərqli düşünməkdə, bu dövlətin qondarma olması qərarına gəlməkdə haqlıdır. Bir sözlə, Ermənistan üçün artıq hazırki dövr çox ciddi məqamdır və indi bu ölkə seçimlə üz-üzədir. Bu ölkə ya normal, beynəlxalq norma və prinsplərə uğyğun, hüquqi şəkildə mövcudluğunu davam etdirməli, ya da olacaqlarla indidən barışmalıdır.

Bütün qəribəliklərinə baxmayaraq, küçə nümayişlərindən hakimiyyətə özünü daşıyan Paşinyanı axmaq da hesab etmək sadəlövhlük olardı. O, indi vəziyyətin ciddiliyini hamıdan yaxşı başa düşür. Başa düşür ki, indi o öz sözlərini təsdiqləmək üçün heç zaman etmədiyi əməli addımlar atmalı, bununla da köklü dəyişikliyə nail olmalı, qaranlıq məsələlərə aydınlıq gətirməlidir. Çünki, bir tərəfdən də Xankəndidə separatçı qalıqlarının məsələsini həll etmək də onun boynuna düşür. Əgər bunu dərk edirsə, çox güman ki, Bakı ilə Qarabağın erməni icması arasında dialoq üçün hansısa xüsusi beynəlxalq gündəliyi irəli sürməyə çalışır.

Paşinyan bilir ki, rəsmi Bakının mövqeyi dəyişməzdir və Qarabağ ermənilərinin reinteqrasiyası məsələsi Azərbaycanın daxili işi hesab olunur, hansı ki, bu məsələ beynəlxalq müdaxilə obyekti ola bilməz. Xüsusən də, Cənubi Qafqaz regionunda reallığı formalaşdıran mühüm oyunçulardan birinə çevrilən Azərbaycanın bundan sonra istənilən daxili məsələsində hansısa müdaxiləyə imkan verəcəyi artıq Nikolun özünə də inandırıcı görünmür, baxmayaraq ki, həm ölkəsinin müxalifət düşərgəsindən olanlar, həm də Makron kimi ara qarışdırıb bulanıq suda balıq tutmaq istəyənlər onu bunun əksinə inandırmağa çalışır. Amma Bakı ilə Ankaranın birliyinin dünyada heç kimin diqqətdən kənarda qala bilməyəcəyi bir amilə çevrilməsini nəzərə alan Paşinyan artır reallıqları görür. Onu da görür ki, ölkəsində revanşizmi alovlandıran xarici qüvvələr Cənubi Qafqazda oyunlar oynamaq üçün Ermənistan alət edib və bundan sonra da eyni niyyətdədirlər.

Heç şübhəsiz, Paşinyan onu da dərk edib ki, 2020-ci ilin payızında qarşılaşdıqları rüsvayçı məğlubiyyətləri onların, siyasi oyunların qurbanına çevrilməsi demək idi. Əslində, İrəvan bilməli idi ki, Azərbaycan torpaqlarını otuz ilə yaxın işğal atında saxlamaq, danışıqlardan imtina etmək, hətta həmin dövr ərzində yeni absurd iddialarla çıxış etmək onların məğlubiyyətinə zəmin yaradır. Bilməli idilər ki, Qarabağ onlar üçün bir tələ olub və onlar artıq çoxdan tələyə düşüblər. Ola bilsin ki, Paşinyan quyruğunu tələdə hiss edə bilib, buna görə də etiraflar edir və bəlkə də özünün də, ölkəsinin də həmin tələdən xilas olmaq, qurtulmaq təklifinin Qərb tərəfdən, yaxud da Rusiya tərəfdən deyil, məhz Azərbaycan tərəfindən gəldiyini anlamağa başlayıb. Biz sözlə, anlamağa başlayıb ki, ölkəsi də, özü də tarixi seçim qarşısındadır və Azərbaycanın təkliflərini qəbul etmələri ən doğru seçimdir. Çünki bunun əksini düşünmək belə Paşinyan üçün böyük baş ağrısıdır və bilir ki, əks halda özünü də, ölkəsini də fəlakətə sürükləyə bilər. Bilir ki, Azərbaycanın yaratdığı reallıqlar sayəsində Cənubi Qafqazda sülh və əmin amanlıq onsuz da olacaq, amma buna mane olan, qarşı çıxan Ermənistan özü bu regionda olmaya və ümumiyyətlə, xəritədən silinə bilər. Bir sözlə, tarixi seçim qarşısında olmağın nə olduğu güman ki, ona indi çatıb...

Təbii ki, indi bütün dünyanın maraq dairəsində olan Moskva görüşü vasitəçilik uğrunda gedən mübarizədə rus gedişidir və Putinin təşəbbüsü ələ almaq istəyi də çoxdan bəllidir. Xüsusilə, Vaşinqton və Brüssel görüşlərinin ardınca Moskvanın hansısa nəticələr əldə etmək marağının olduğu da təkzib edilə bilməz. Bu baxımdan sülh prosessi üçün irəliləyiş sayıla biləcək müəyyən sənədlərin imzalanması ehtimalı da böyükdür. Təsadüfi deyil ki, bu barədə Rusiya mətbuatı da müəyyən məqamlardan bəhs etməkdədir və üçtərəfli görşdə vacib sənədlərə imza atılacağı barədə anons da verilib. Bu anons verilərkən məhz ermən baş nazirinin öz ölkəsinin tarixi seçim qarşısında qalması da sözsüz ki, nəzərə alınıb. Çünki Rusiya mediası daha yaxşı bilir ki, Ermənistan hansı uçurum qarşısındadır və bunu da həmin ölkə hakimiyyəti artıq dərk edir.

Heç şübhəsiz ki, tərəflər arasında nəqliyyat kommunikasiya xətlərinin açılması vacib amildir, çünki inteqrasiya və tərəflər arasında ticari, iqtisadi əlaqələr olmadan, kommunikasiya xətləri açılmadan hər hansı bir dayanıqlı sülhdən danışmaq mənasızdır. Məsələ burasındadır ki, Rusiya özü də bu sənəddə maraqlıdır. Çünki belə bir sənəd imzalanarsa, Rusiya bir daha dünyaya ismarıc vermiş olacaq ki, bu prosesdə əsas iştirakçı, hətta həlledici Vaşinqton, yaxud Brüssel deyil, məhz Moskvadır. Əgər həqiqətən də Moskva görüşündə Paşinyan dəyişkənlik etməsə, razılıqlar əldə olunsa, danışıqlarda ciddi irəliləyişə, sülh yolunda hansısa inkişafa məhz Kremlin vasitəçiliyi ilə nail olunacağını göstərmək üçün Rusiyanın bütün dünyada öyünməsi şansı yarana bilər. Onu da qeyd edək ki, bu şansı belə Moskva əvvəlcədən nəzərə almaya bilməz və Paşinyana da əvvəlcədən dəyişkənlik etməməsi üçün barmaq silkələnə bilər. Həm də axı, bu erməni baş nazirin başı daşdan-daşa çox dəyib və indi rasional qərar verməyin vaxtı olduğunu bilməmiş olmaz və ən azından tarixi məqam olduğunun, ölkəsinin seçim qarşısında qaldığının fərqində olmalıdır.

Paşinyan Azərbaycanın ərazi bütövlüyünü tanısa da, onun siyasi flügerlik nümayiş etdirməsi əvvəllər də praktiki olaraq dəfələrlə özünü göstərib. Sözsüz ki, öz fikirlərində dəyişikliyə yol verə biləcəyi də istisna edilə bilməz. Məhz elə ilk növbədə də onun sabit siyasi iradəyə, mövqeyə malik olmaması sülh prosesini ləngidən faktorlardan sayılır. İndi sülh prosesinin başlaması üçün vacib olan məqam odur ki, Ermənistan götürəcəyi öhdəliyə sona qədər sahib çıxsın, tutduğu mövqedən geri çəkilməsin. Hər halda baş nazir Nikol Paşinyan da bunu başa düşür və ümid edirik ki, daha dəyişkənliyə, flügerliyə meyilli olmaz, çünki tarixi seçim qarşısında üçtərəfli danışıqda iştirak edən digər iki ölkə deyil, onun öz ölkəsidir.

***İnam Hacıyev***

# Suveren, demokratik və hüquqi dövlət




***Şərq dünyasında Azərbaycan demokratik, hüquqsevər, humanist bir dövlət olaraq öz möhrünü vurmuşdur. 1918-ci il mayın 28-də Tiflisdə Azərbaycan Milli Şurasının ölkənin dövlət müstəqilliyi haqqında "İstiqlal Bəyannaməsi"ni qəbul etdi. Bu hüquqi və siyasi sənəddə müstəqil Azərbaycan dövlətinin yarandığı göstərildi, onun hakimiyyətinin şamil olduğu ərazinin hüdudları müəyyənləşdirildi, eləcə də, dövlətin əsas prinsipləri öz əksini tapmış oldu.***



"İstiqlal Bəyannaməsi"ndə demokratik dövlətə məxsus atributların - hakimiyyətin xalqa məxsus olması, vətəndaşların mülki və siyasi hüquqlarının təminatı, bütün xalqların və hər bir kəsin milli, dini, sinfi və cinsi mənsubiyyətindən asılı olmayaraq, azad inkişafı üçün şərait yaradılması, ən nəhayət, hakimiyyətin bölünməsi prinsiplərinin dövlət fəaliyyətinin əsası kimi bəyan edilməsi Azərbaycan xalqının suveren, demokratik, hüquqi dövlət yaratmaq əzmində olduğunu bütün bəşəriyyətə nümayiş etdirdi.





### AZƏRBAYCAN TARİXİNƏ VERİLƏN DƏYƏR

Azərbaycan Xalq Cümhuriyyəti Cənubi Qafqazda ilk demokratik respublika idi. Belə bir günün bu gün də qeyd olunması Azərbaycan tarixinə verilən dəyərdir. Bu onu təsdiqləyir ki, Azərbaycan qədim dövlətçilik və idarəçilik tarixinə, ənənələrinə malikdir. Ulu Öndər Heydər Əliyev dəfələrlə bildirmişdi ki, biz bu gün demokratik Azərbaycan dövlətini qururuqsa, ayağa qaldırırıqsa, Xalq Cümhuriyyətinə borcluyuq. Azərbaycan Xalq Cümhuriyyətinin tariximizdəki yeri və roluna xüsusi qiymət verən Heydər Əliyev deyirdi: "Biz ilk Demokratik Cümhuriyyətin yaranması gününü əziz tutaraq, onu Azərbaycanın dövlət müstəqilliyi günü – Respublika Günü elan etmişik və bu, bizim milli bayramımızdır". Ümummilli Liderin siyasətini Prezident İlham Əliyev uğurla davam etdirir. Dövlətimizin başçısının sərəncamları ilə 2018-ci il ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan olundu və AXC-nin 100 illik yubileyi təntənəli şəkildə qeyd edildi. Xalqımız Cümhuriyyətin yarandığı 28 May – Respublika Gününü milli bayram kimi qeyd edir. Bu gün Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 105 illiyini Qalib Azərbaycan xalqı qürurla qeyd qeyd edir. Belə bir gün ərəfisində dünya ölkələrinin prezidentlərindən, siyasi xadimlərindən təbrik məktubları davam etməkdədir.

### DAVAMLI SÜLH, TƏHLÜKƏSİZLİK VƏ SABİTLİK XÜSUSİ ÖNƏM KƏSB EDİR

Avstriya Respublikasının Federal Prezidenti Aleksander Van der Bellenin ünvanladığı təbrikində "Bütün dövlətlərin və xalqların rifahı, habelə Cənubi Qafqaz regionunun insan və iqtisadi potensialının inkişafı üçün davamlı sülh, təhlükəsizlik və sabitlik xüsusi önəm kəsb edir. Mən əminəm ki, Azərbaycan buna əhəmiyyətli dərəcədə töhfə verə bilər. Bu fürsətdən məmnuniyyətlə istifadə edərək, Sizə əmin-amanlıq, Azərbaycan xalqına isə xoşbəxt və dinc gələcəklə bağlı ən gözəl arzularımı çatdırıram", - deyə bildirib. Əlbəttə ki, bu təbriklər Azərbaycan Prezidenti İlham Əliyevin dünya dövlətləri ilə qurduğu qarşılıqlı əməkdaşlıqdan irəli gəlir. Bütün sahələrdə dövlətlərarası qurulan əlaqələr Azərbaycanı müstəqil bir dövlət olaraq dünya arenasında sülhsevər, qlobal təşəbbüslərin müəllif olaraq tanıdıb. Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi siyasətin bariz nümunəsidir.

Filippin Respublikasının Prezidenti Ferdinand Romualdez Markos Azərbaycanın milli bayramı - Müstəqillik Günü münasibətilə Filippin xalqı və hökuməti adından səmimi təbriklərini ifadə edib: "Son üç onillikdə Filippin ilə Azərbaycan arasında səmimi münasibətlər mövcuddur. İnanıram ki, dövlətlərimiz dostluq əlaqələrini gələcək illərdə də davam etdirəcək. Filippin iqlim dəyişikliyi, enerji təhlükəsizliyi və pandemiyadan sonrakı bərpa kimi ümumi narahatlıq doğuran qlobal çağırışların həllində Azərbaycanla işləməyə hazırdır". Tailand Krallığının Baş naziri General Prayut Çan-oça Müstəqillik Günü münasibətilə təbriklərini çatdırmaqla yanaşı, otuz ildən çoxdur ki, Tailand və Azərbaycan arasında dostluq münasibətlərini mövcud olduğunu bildirib: "Əminəm ki, əlaqələrimiz ölkələrimizin və xalqlarımızın rifahı naminə qarşılıqlı maraq doğuran bütün sahələrdə bundan sonra da möhkəmlənəcəkdir".

Hər bir təbrik məktubunda ölkələr arasında dostluq münasibətləri və bu münasibətlərdə yaranan hərtərəfli əlaqələrin inkşafı diqqətdən yayınmır. Azərbaycan müstəqillik dövründə qazandığı nüfuz nəticəsində ölkəmiz dünya dövlətləri ilə yüksək əməkdaşlıq əlaqəri qura bilmişdir. Çex Respublikasının Prezidenti Petr Pavel, Bolqarıstan Respublikasının Prezidenti Rumen Radev, Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah əs-Sisi və başqaları tərəfindən ünvanlanan təbriklərdə ölkələrimiz arasında dostluq münasibətlərinin mövcudluğu və birgə səylərin nəticəsində səmərəli münasibətlərin intensiv inkişafı öz töhfəsini verir. Strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmiş mükəmməl ikitərəfli münasibətlər ölkələrarası dinamik inkişafa müsğət təsirini göstərir.

### AZƏRBAYCANIN BÜTÜN VƏTƏNDAŞLARINA XOŞBƏXTLİK VƏ FİRAVANLIQ ARZUSU

Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin təbrikində deyilir: "Ölkəniz sosial və iqtisadi sahələrdə böyük uğurlar əldə edib. Azərbaycan dünya arenasında haqlı nüfuz qazanıb, beynəlxalq gündəliyin bir çox aktual məsələlərinin həllində fəal rol oynayır. Rusiya-Azərbaycan münasibətləri müttəfiqlik qarşılıqlı fəaliyyəti səviyyəsinə yüksəlib, müxtəlif istiqamətlərdə konstruktiv ikitərəfli əməkdaşlıq dinamik şəkildə inkişaf edir. Əminəm ki, biz birgə səylərlə dost xalqlarımızın rifahı naminə tərəfdaşlıq əlaqələrinin bütöv kompleksinin gələcək inkişafını təmin edəcəyik. Hörmətli İlham Heydər oğlu, Sizə səmimi-qəlbdən möhkəm cansağlığı və uğurlar, Azərbaycanın bütün vətəndaşlarına xoşbəxtlik və firavanlıq arzu edirəm".

İkitərəfli münasibətlər ölkələrin, həm də xalqların rifahı naminə ümumi maraq kəsb edən sahələrdə daha da böyük irəliləyişlərə səbəb olacaqdır. Azərbaycanın müsbət beynəlxalq imici, ölkəmizin nailiyyətləri beynəlxalq səviyyədə yüksək qiymətləndirilir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi ölkəmizin uğurlu inkişafı danılmaz həqiqətdir. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan uğurla inkişaf edir, daxili siyasi sabitliyini daha da möhkəmləndirir

***Nəzakət ƏLƏDDİNQIZI***

TƏHLİL



# Xilaskar və qurucu Lider!

*Mingəçevir şəhərində "Heydər Əliyev İli" çərçivəsində tədbir keçirilib*



"Heydər Əliyev İli" ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiq edilən Tədbirlər Planı çərçivəsində mayın 25-də YAP Mingəçevir şəhər təşkilatı Mingəçevir şəhər Heydər Əliyev Mərkəzində Ulu Öndərin anadan olmasının 100 illiyinə həsr olunan tədbir keçirib. Əvvəlcə ümummilli lider Heydər Əliyevin abidəsi ziyarət olunub, önünə gül dəstələri qoyulub, Ulu Öndərin əziz xatirəsi dərin ehtiramla anılıb.



Tədbirdə Dövlət Himni səsləndirilib. Müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Daha sonra Ümummilli Liderin həyat və fəaliyyətindən bəhs edən videoçarx nümayiş olunub.

Tədbiri giriş sözü ilə açan YAP Mingəçevir şəhər təşkilatının sədri Bəxtiyar Mustafayev bildirib ki, müasir müstəqil Azərbaycanın memarı ümummilli lider Heydər Əliyev tarix yaradan əvəzolunmaz şəxsiyyətdir. Azərbaycan dövlətçiliyini bütün təhlükələrdən qoruyan və inkişaf etdirən qüdrətli şəxsiyyət Heydər Əliyevin müstəsna fəaliyyəti müasir tariximizin şərəfli mərhələsini təşkil edir: "Heydər Əliyev tarixi şəxsiyyətlər sırasında öz layiqli yerini tutub, xalqımızın yaddaşında qurucu və xilaskar obrazını daim yaşadıb, qəlblərdə özünə əbədi məhəbbət qazanıb. Bu gün xalqımız Ümummilli Liderin layiqli davamçısı olan Azərbaycan Prezidenti İlham Əliyevin ətrafında sıx birləşib".

Mingəçevir şəhər İcra Hakimiyyətinin başçısı İlham İsmayılov diqqəti ulu öndər Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra həyata keçirdiyi xilaskarlıq missiyasına yönəldib. Qeyd edib ki, taleyimizin həll olunduğu ağır bir zamanda xalqın təkidli tələbinə səs verərək yenidən hakimiyyətə qayıdan Ümummilli Lider doğma Vətənin xilası naminə misilsiz fədakarlıq nümayiş etdirmiş, ölkəmizi ictimai-siyasi pərakəndəliyin və anarxiyanın məngənəsindən qurtarmış, bütün sahələrdə müşahidə olunan dərin tənəzzülün qarşısını almış, dövlətin dayanıqlı inkişaf yolunu müəyyən etmişdir.

YAP Veteranlar Şurasının üzvü, "91-lər"dən olan Əməkdar jurnalist Tahir Məmmədov çıxış edərək vurğulayıb ki, ulu öndər Heydər Əliyevin mənalı və şərəfli həyat yolu zaman, məkan anlayışına sığmır. Ümummilli Lider xalqımızın xilaskarı, müasir müstəqil Azərbaycan dövlətinin banisidir. Heydər Əliyevin müstəqillik dövründə ölkəmizə rəhbərliyi illəri xalqımızın nadir tarixi imkandan faydalanaraq, böyük əziyyətlər bahasına öz müstəqilliyini əbədi və dönməz etdiyi taleyüklü mərhələdir.

YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Şahin İsmayılov bildirib ki, Azərbaycanın və Türk dünyasının dahi oğlu Heydər Əliyev bütün varlığı ilə sevdiyi və canından əziz bildiyi doğma xalqının mənafelərini daim önə çəkmiş və respublikamızın inkişafı üçün malik olduğu bütün imkanlardan istifadə etmişdir. Ümummilli Liderin ideyaları Azərbaycanın dünəninin, bu gününün və gələcəyinin əsasıdır. Azərbaycanın hər bir uğuru Heydər Əliyev siyasətinin təntənəsidir.

"Azərbaycan İES" MMC-nin direktoru, 33 saylı ərazi partiya təşkilatının sədri Təhmasib Hüseynov Ümummilli Liderin Vətən və xalq qarşısında xidmətlərinin ölçüyəgəlməz olduğunu söyləyib. Onun sözlərinə görə, Azərbaycan bu gün dahi şəxsiyyətin müəllifi olduğu yeni inkişaf strategiyasının uğurlarını yaşayır.

Sonra şəhərin ictimai-siyasi həyatında fəal iştirak edən partiya üzvlərinə fəxri fərman, YAP sıralarına yeni qoşulan gənclərə isə üzvlük vəsiqələri təqdim edilib. Tədbirə bədii hissə ilə yekun vurulub.

# Ulu Öndər Azərbaycan xalqına sədaqətlə xidmət edib

*Xəzər rayonunda ümummilli lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr edilmiş tədbir keçirilib*





**"Heydər Əliyev İli" ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiq edilən Tədbirlər Planı çərçivəsində mayın 25-də YAP Xəzər rayon təşkilatı tədbir keçirib. Əvvəlcə ümummilli lider Heydər Əliyevin abidəsi ziyarət olunub, önünə gül dəstələri qoyulub, Ulu Öndərin əziz xatirəsi dərin ehtiramla anılıb. Tədbirdə Dövlət Himni səsləndirilib. Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.**

Tədbiri giriş sözü ilə açan YAP Xəzər rayon təşkilatının sədri Namiq Əhmədov qəlbi daim Azərbaycan ilə döyünən, bütün varlığı ilə xalqına bağlı olan, hər bir çətin vəziyyətdən ən düzgün çıxış yolu tapan müdrik lider Heydər Əliyevin misilsiz xidmətlərindən danışıb. O, həmçinin vurğulayıb ki, əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan və bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə parlaq fəaliyyətini davam etdirən Yeni Azərbaycan Partiyası regionun ən böyük, mütəşəkkil siyasi təşkilatlarından biridir.

Xəzər rayon İcra Hakimiyyətinin başçısı Elşən Salahov ümummilli lider Heydər Əliyevin şərəfli həyat yolu, zəngin və çoxşaxəli fəaliyyətindən bəhs edib. Qeyd edib ki, Azərbaycan xalqının dahi oğlu Heydər Əliyev Azərbaycanı zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxararaq, onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir.

Tədbirdə çıxış edən YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Rauf Əliyev söyləyib ki, ulu öndər Heydər Əliyev bütün dövrlərdə öz doğma xalqına sədaqətlə xidmət edib. Ümummilli Lider Azərbaycanın müasir simasının, xalqımızın zəngin dəyərlərinin tanıdılmasında və ölkəmizin beynəlxalq münasibətlər sistemində layiqli mövqe qazanmasında müstəsna rol oynayıb.

YAP İdarə Heyətinin üzvü, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Ümummilli Liderin dini tolerantlıq məsələlərinə daim xüsusi diqqət göstərdiyini vurğulayıb. Bildirib ki, ulu öndər Heydər Əliyevin hakimiyyətə yenidən qayıdışından sonra dövlət-din münasibətlərinin hüquqi əsaslarla tənzimlənməsi, dini etiqad azadlığının təmin olunması, dini dözümlülük ənənələrinin möhkəmləndirilməsi, milli-mənəvi dəyərlərimizin qorunması və dini abidələrimizin bərpası istiqamətində sistemli və məqsədyönlü tədbirlər həyata keçirilib.

Partiya veteranı İsgəndər Mustafayev və YAP Xəzər rayon təşkilatının məsul əməkdaşı Nəzrin Bayramovanın çıxışlarında vurğulanıb ki, Ümummilli Liderin həm SSRİ dövründə, həm də müstəqillik illərində ölkəmizə rəhbərlik etdiyi dönəmdə görülən işlər respublikamızın qüdrətinin artmasına, Azərbaycanın tarixi nailiyyətlər qazanmasına xidmət edib. Qeyd olunub ki, ulu öndər Heydər Əliyev gənclər siyasətini müstəqil Azərbaycan dövlətinin ən mühüm fəaliyyət istiqamətlərindən biri kimi dəyərləndirib. Azərbaycan gənclərinin bir fərd, əsl vətəndaş kimi formalaşmasında ümummilli lider Heydər Əliyevin danılmaz əməyi, misilsiz xidmətləri var.

Sonra rayonun ictimai-siyasi həyatında fəal iştirakına görə bir qrup partiya fəalına fəxri fərmanlar təqdim olunub. Tədbir bədii hissə ilə başa çatıb.

# Əhalinin sosial müdafiəsi: yeni yanaşma və ənənəvi metodlar

***Sosial rifah və onun daim yüksələn xətt üzrə inkişafına nail olunması müasir dövrdə ən vacib vəzifələrdən biridir. Sosial rifah halının, insanların həyat səviyyəsinin yüksək olmadığı cəmiyyətdə, dövlətdə böyük nailiyyətlərlə müşayiət edilən inkişafdan söhbət açmaq mümkün deyil. Sosial siyasət insanların həyatının bütün sahələrini - əmək və məişət şəraitinin yaxşılaşdırılmasını, sosial ədalət prinsipinin reallaşdırılmasını, əhalinin etibarlı sosial müdafiəsinə nail olunmasını, məşğulluq probleminin həllini, maddi və mənəvi tələblərin təminatını və digər bu qəbildən olan halları əhatə edir. Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə bu sahədə həyata keçirilən uğurlu siyasət nəticəsində əhalinin, onun müxtəlif, o cümlədən aztəminatlı təbəqəsinin etibarlı sosial müdafiəsi yaradılıb, insanların həyat səviyyəsi davamlı olaraq yüksəlib.***

## ”MƏŞĞULLUĞA DƏSTƏK LAYİHƏSİ”NƏ 8,5 MİN ŞƏXS CƏLB OLUNUB

Məşğulluq imkanlarının artırılması, qeyri-rəsmi məşğulluğun qarşısının alınmasına yönəldilmiş kompleks tədbirlərin həyata keçirilməsi 2018-2023-cü illərdə ölkəmizdə əmək müqavilələri sayında 34 faiz və ya 400 mindən çox artıma imkan verib. Məşğulluğun təminatı, işçi qüvvəsinin bacarıqlarının inkişaf etdirilməsi istiqamətində məqsədyönlü işlər aparılaraq 400 min nəfər işlə təmin edilib. Özünüməşğulluq proqramına cəlb olunanların illik sayı 14 dəfə artırılaraq 16 mini ötüb, 61 min nəfər üçün özünüməşğulluq proqramı çərçivəsində kiçik təsərrüfatlar yaradılıb. ”Məşğulluğa Dəstək Layihəsi”nə isə artıq 8,5 min şəxs cəlb olunub.

Ödənişli ictimai işlər proqramı üzrə 127 min nəfərin, 2020-ci ilin son aylarında icrasına başlanan ”İşəgötürənlə birgə işçilərin əməkhaqqının maliyyələşdirilməsi” proqramı üzrə 2,2 min nəfərin işlə təminatı həyata keçirilib. 2018-2023-cü illərdə 16,5 min nəfər üçün əmək bazarının tələblərinə uyğun peşələr üzrə peşə hazırlığı kursları təşkil edilib, 423 min nəfər peşəyönümü xidmətlərə cəlb olunub, 18 min nəfər işsizlikdən sığorta ödənişi ilə təmin olunub.









## UĞURLA YERİNƏ YETİRİLƏN SOSİAL TƏMİNAT

Son illərdə Azərbaycan Respublikasında əhalinin sosial müdafiəsi sahəsində qəbul edilmiş qanunlar, fərman və sərəncamlar, əhalinin sosial müdafiəsi sahəsində əsaslı islahatlar bu sahədə prinsipcə yeni vəzifələr yaratmış, qarşıya milli normaların beynəlxalq təcrübəyə uyğunlaşdırılması, əhalinin sosial müdafiəsinə yeni yanaşma və ənənəvi metodların təkmilləşdirilməsi kimi tələblər qoymuşdur.

Ölkəmizdə sosial sığorta sistemi daha da təkmilləndirilir. Əməkqabiliyyətli insanların fəaliyyətlərinin reallaşdırılması üçün hər cür şərait yaradılır, dövlət təqaüdçülər, əlillər, əmək qabiliyyətindən məhrum olan digər insanlar, eləcə də büdcədən sosial müavinətlər alanlar qarşısındakı sosial öhdəliklərini də müvəffəqiyyətlə yerinə yetirir. Azərbaycan iqtisadiyyatının ümumi dinamik inkişafı sığorta bazarının da davamlı inkişafını şərtləndirir. Ölkəmizdə ”İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta” haqqında və ”İcbari sığortalar haqqında” Azərbaycan Respublikası qanunları qüvvədədir. Təbii ki, Azərbaycanda bütün əmlakın və biznes fəaliyyətinin. hər bir insanın icbari tibbi, eləcə də həyatı sığorta təminatı da vacib məsələlərdəndir. Azərbaycan dövlətinin öz vətəndaşlarına göstərdiyi diqqət və qayğı bütün cəmiyyəti, o cümlədən müharibə əlilləri və şəhid ailələrini əhatə edir. Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial siyasətin əsas istiqamətlərindən birini məhz müharibə veteranlarının, əlillərinin, şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi, onların problemlərinin vaxtında həlli, hər cür qayğı ilə əhatə olunması təşkil edir.



Vurğulamaq yerinə düşər ki, Ulu Öndərin təşəbbüsü ilə ”Şəhid adının əbədiləşdirilməsi haqqında” qanun qəbul olunmuşdu və bu qanun məhz Heydər Əliyevin 1993-cü il tarixli Fərmanı ilə təsdiq edilmişdi. Bu gün Ulu Öndərin siyasi kursunu Azərbaycan Prezidenti İlham Əliyev uğurla davam etdirir. 2003-cü ildən bu günə kimi, görülən işlər bunu sübut edir. Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olanların ailələrinə, fiziki sağlamlığını itirən insanlara, onların problemlərinə də böyük həssaslıqla yanaşılır, əlillərin, müharibə veteranlarının, şəhid ailələrinin sosial rifahının yüksəldilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Şəhid övladlarının təhsil haqları dövlət tərəfindən ödənilir, şəhid ailələrinə güzəştli ipoteka kreditləri, torpaq sahələri, onlara müavinət, pensiya ilə yanaşı, Prezident təqaüdü verilir. Cənab Prezidentin göstərişi ilə şəhid ailələri mənzillə təmin olunur.

## ŞƏHİD AİLƏLƏRİ VƏ ƏLİLLƏRƏ 13 560 MƏNZİL VƏ FƏRDİ EV VERİLİB

Dövlət başçısı şəhid ailələri ilə görüşlərinin birində vurğulamışdı ki, Mən şəhid ailələrinə mənzillərin, avtomobillərin açarlarını şəxsən təqdim etmişəm və bunu özüm üçün borc bilirəm: ”Bu, Mənim borcumdur, xalqa xidmət etmək Mənim ən böyük vəzifəmdir”. Şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə ötən dövrdə 13 560 mənzil və fərdi ev verilib. Şəhid ailələrinin, müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin sosial müdafiəsinin gücləndirilməsi Prezident İlham Əliyevin uğurlu sosial siyasətinin ana xəttini təşkil edir. Dövlət başçısının göstərişinə əsasən, bu kateqoriyadan olan vətəndaşların mənzillə təminatı proqramı 2018-2023-cü illərdə 5 dəfə genişlənib. Qeyd olunan dövrdə 7892, ümumilikdə ötən dövrdə 13 560 mənzil və fərdi ev şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə təqdim edilib.

Müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə 2018-2023-cü illərdə 1582, ümumilikdə ötən dövrdə 7500-dən çox avtomobil verilib.

Möhtəşəm Zəfərimizlə başa çatan 44 günlük Vətən müharibəsindən sonrakı dövrdə şəhidlərimizin ailə üzvlərini, qaziləri, müharibə əlillərini əhatə edən sosial dəstək paketləri reallaşıb. Onların sosial-psixoloji dəstək, reabilitasiya xidmətləri və vasitələri ilə təminatı, məşğulluq məsələlərinin operativ həlli sahələrində mühüm işlər aparılıb. Bu dəstək paketi minlərlə şəxsi əhatə edib.

Bu siyasət davamlı xarakter daşıyır. Azərbaycan dövləti bu qəbildən olan insanların qayğı və ehtiyaclarını diqqətdə saxlayır, sosial problemlərinin həlli istiqamətində ardıcıl işlər görülür.

***Zümrüd BAYRAMOVA***

# Azad torpaqlarımız: Qədim mədəniyyət mərkəzi Cəbrayıl müasir həyata doğru




***Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan üç rayondan biri Cəbrayıl Qubadlı və Zəngilan kimi 2020-ci ilin 27 sentyabrında başlanan və 44 gün davam edən İkinci Vətən müharibəsində müzəffər Ali Baş Komandanım İlham Əliyevin sərkərdəliyi ilə qəhrəman milli ordumuz tərəfindən işğaldan azad edilən ərazilərimizdəndir. 44 gündə düşmənin 30 il ərzində torpaqlarımızda qurduğu keçilməz barrikadalar yerlə yeksan olundu. 30 il işğal altında inləyən, düşmən tapdağından inləyən, doğmasını gözləyən Qarabağımız anası Azərbaycana qovuşdu. Doğmalarının addım səsi ilə üzü güldü torpaqlarımızın. Bir-birindən gözəl, tarixi və mədəniyyət abidələri, yeraltı-yerüstü sərvətləri ilə zəngin olan yurd yerlərimiz öz sahiblərinə qaytarıldı.***

Budur, artıq azad torpaqların hər birində müharibə bitən gündən bərpa işləri gedir. Cəbrayıl rayonu da düşmənin daşı daş üstündə qoymadığı yurd yerlərimizdən biri olduğu üçün həyata keçirilən işlərlə yeni bir həyata doğru addımlamaqdadır.

## Cəbrayıla qısa bir nəzər

Cəbrayıl Kiçik Qafqaz dağlarının cənub-şərqində, Gəyən düzü və Qarabağ silsiləsində yerləşir. Rayon cənubdan Araz çayı boyu İran İslam Respublikası ilə həmsərhəddir. Sahəsi 1049 kvadrat kilometrdir, ərazisi əsasən dağlıqdır. Araz çayının qırağı vaxtilə Tuqay meşələri ilə sıx olmuşdur. Arazboyu düzənliklərin torpaqları yüksək məhsuldarlığa malik tünd şabalıdı torpaqlardır. Məhsuldar olan bu torpaqlarda Cəbrayılın iri kəndləri - Böyük Mərcanlı, Soltanlı və s. yerləşir. Cəbrayıl rayonun ən yüksək zirvəsi Dağ Tumasdır (1580 m). Erməni işğalından əvvəl rayonda yaşı 400-500 olan 14 iri diametrli çinar ağacı, 104 kəhriz və 99 bulaq vardı.

Cəbrayıl rayonu 8 avqust 1930-cu ildə təşkil edilmişdir. 4 yanvar 1963-cü ildə ləğv edilərək Füzuli rayonuna birləşdirilmiş, 17 iyun 1964-cü ildə yenidən yaradılmışdır.

Rayon əhalisi arasında ərazinin adının VIII əsrdə yaşamış Cəbrayıl atanın adından alması ilə bağlı fikirlər var. Amma Cəbrayıldakı saysız-hesabsız abidələrin, mağaraların, qalaların, bürclərin, məbədlərin qalıqları bu yaşayış ərazisinin yaşının daha qədim olmasından xəbər verir. Rayonun köhnə qəbiristanlığında qədim yazılar yazılmış bir lövhə parçası aşkar olunmuşdur. Həmin yerdə, yolun qırağında isə iki başdaşı vardır. Başdaşılarının yuxarı hissəsində heyvan təsvirləri-dağ keçiləri və Qobustan qayaüstü təsvirlərini xatırladan müxtəlif tamqalar həkk edilmişdir. Cəbrayılın ətrafında müxtəlif bədii formaya malik qəbirdaşları vardır, onlardan qoç heykəli olan ikisi Azərbaycanın digər dağətəyi rayonlarındakı abidələrin analogiyasıdır. Cəbrayıl rayonunda müxtəlif türbələr-Dağtumas kəndində XIII–XVI əsrlərə aid türbə, Şıxlar kəndində yerləşən Şıxbaba türbəsi (XIV əsr), Xubyarlı kəndində XVI əsrə aid səkkizguşəli türbə və onlarla başqa tarixi-dini memarlıq nümunələri vardır.

23 avqust 1993-cü il tarixində rayon Ermənistan ordusu tərəfindən işğal edilmiş, yaşayış məskənləri ilə yanaşı, tarixi-dini abidələri də məhv olunmuş, işğal nəticəsində rayona 13,928 milyard ABŞ dolları məbləğində ziyan dəymişdir. Cəbrayıllı məcburi köçkünlər respublikanın 58 rayonunun 2000-dək yaşayış məntəqəsində, çadır düşərgələrində, yük vaqonlarında və yataqxanalarda məskunlaşmışdılar.

4 oktyabr 2020-ci ildə rayonun mərkəzi






və bir sıra kəndləri işğaldan azad olunaraq yenidən Azərbaycan torpaqlarına birləşdirildi.

## Xudafərin körpüləri

Vahid Azərbaycan rəmzi kimi qəbul edilən Xudafərin körpüsü də Cəbrayıl rayonunda yerləşir. Bu körpü haqqında ilk məlumat VIII–IX əsrlərə aiddir. Xudafərin körpüsü Cənubi Azərbaycanla Şimali Azərbaycanın orta əsr şəhərlərini birləşdirən karvan yolunun üstündə tikilib. O, həm də mühüm hərbi-strateji əhəmiyyət daşıyır. Araz çayının ən dar, qayalıqla əhatələnən yerində inşa edilmiş ilk körpü VIII əsrin sonu-IX əsrin əvvəllərindən başlayaraq, XIX əsrə kimi fəaliyyət göstərmişdir. Kərpic körpü isə XII əsrdə tikilmişdir.

Tarixçilər yazırlar ki, Cəbrayılda nəinki təkcə Xudafərin körpüləri, eyni zamanda Azərbaycan memarlıq sənəti sahəsində mühüm yer alan bir çox monumental abidələr, qalalar, türbələr, məscidlər və sair var. Bu ərazilər Kür-Araz mədəniyyətinin təşəkkül tapdığı və Qədim Şərq mədəniyyətinin Qafqaza təsirində keçid məntəqələrindən, habelə qədim mədəniyyətlərin qovuşduğu yurd yerlərindən biridir.

Bu zənginlikləri özündə əks etdirən Cəbrayılın sentyabrın 27-də Böyük Mərcanlı, Nüzgar, oktyabrın 3-də Mehdili, Çaxırlı, Aşağı Maralyan, Şeybəy və Quycaq, 4-də Cəbrayıl şəhəri və Karxulu, Şükürbəyli, Çərəkən, Daşkəsən, Horovlu, Mahmudlu, Cəfərabad, Yuxarı Maralyan, Decal, 5-də Şıxəli Ağalı, Sarıcalı, Məzrə, 9-da Qaracallı, Süleymanlı, Əfəndilər, 15-də Doşulu, 19-da Soltanlı, Əmirvarlı, Maşanlı, Həsənli, Əlikeyxanlı, Niyazqullar, Keçəl Məmmədli, Şahvəlli, Hacı İsmayıllı, İsaqlı kəndləri və əhəmiyyətli yüksəklikləri, mövqeləri, bu ərazilərin fonunda isə Xudafərin işğaldan azad edildi.

Oktyabrın 18-də-Azərbaycanın Dövlət Müstəqilliyi günündə Xudafərin körpüsü üzərində Azərbaycan bayrağı qaldırıldı. Həmin gün Xidafərinlə sanki üz-üzə dayanıb ona belə söylədim: Azadlığın, növrağın mübarək, Xudafərin. Nə gözəl tarix yazıldı aşırımlarına. Sən axı 1991-ci ildə əldə etdiyimiz müstəqilliyi doyunca yaşamamışdın. Üçrəngli bayrağın üstündə bərqərar olduğun Arazın sularındakı əksini ətrafındakı zirvəsi səmaya toxunan dağlara, sıldırım qayalıqlara yaya bilməmişdin. Bayrağın mübarək, azadlığın mübarək, Xudafərin. Sən Allaha səni yaratdığı üçün təşəkkür edirsən əsrlərdir. Biz azərbaycanlılar da Allaha səni bizə yenidən qovuşdurduğu üçün minnətdarıq, ey ulu yurdumuz, müqədəs torpağımız Cəbrayılın göz bəbəyi...

## Xudafərində Xudafərin qəsəbəsi salınır

Xudafərin qəsəbəsinin salınması Cəbrayılın əsrarəngiz görünüşünə yeni rəng qatacaqdır. Bu qəsəbənin həm də Azərbaycan xalqı üçün tarixi əhəmiyyət daşıyan Xudafərin körpüsünə yaxın məsafədə salınması isə indidən onun gözəlliyini gözlər önünə gətirir.

May ayının 4-də dövlətimizin başçısı Cəbrayıl rayonuna səfəri çərçivəsində Xudafərin qəsəbəsinin təməlini qoyub, qəsəbənin inkişaf planı barədə videoçarxa baxıb.

Qəsəbə Xudafərin körpüsünün yaxınlığında, yeni dəmir yolu xəttindən və avtomobil yolundan 7 kilometr məsafədə salınır. Qəsəbənin layihələndirilən ümumi ərazisi 25 hektardır. Baş plana əsasən, gələcəkdə burada 149 ev tikiləcək. Qəsəbədə birinci mərhələdə 20 evin inşası nəzərdə tutulur. Burada iki, üç, dörd və beş otaqlı fərdi evlər tikiləcək. Hər evin həyətyanı sahəsi 600 kvadratmetr təşkil edəcək. Qəsəbəyə birinci növbədə 77 sakin köçürüləcək.

Xudafərin qəsəbəsində məktəb, uşaq bağçası, inzibati bina, məscid, bazar, çoxfunksiyalı bina (ticarət müəssisələri, tikinti materiallarının satış zonası, ictimai qida müəssisələri və s.), mədəniyyət evi, "Karvansaray" hotel və icma evi də yaradılacaq. Bundan başqa, Araz çayının sahilində və Xudafərin körpüsünün yaxınlığında parkın salınması da nəzərdə tutulub.

Təhlil

## Bir ilə bir yarımstansiya

Hələ müharibə bitməmişdi, ərazilərimiz işğaldan azad edildikcə “Azərenerji” həmin yerlərdə fəaliyyətə başlayır, bərpa işlərinin görülməsi üçün ən vacib olan elektrik enerjisi ilə təminatı həyata keçirirdi. Müharibə bitəndən bu günə kimi də “Azərenerji” fəaliyyətini davam etdirir. Belə ki, işğaldan azad edilən ərazilərdə bu günədək 37 enerji obyekti - 12 yarımstansiya, 25 Su elektrik stansiyası tikilib və tikilməkdədir. Bu enerji obyektlərində indiyədək 170 nəfər yerli sakin məskunlaşma siyasətinə uyğun olaraq daimi işlə təmin edilib.

Ötən il mayın 26-da Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə Azərbaycan-Türkiyə-Avropa Enerji Dəhlizi Layihəsi çərçivəsində təməli qoyulan 330/110 kV-luq “Cəbrayıl” qovşaq yarımstansiyası və ikidövrəli olmaqla 132 kilometr məsafədə 330 kV-luq “Ağcabədi-Cəbrayıl” ötürmə xətti “Azərenerji” tərəfindən rekord müddətdə - bir ildə tikilib və 330 kV-luq “Ağcabədi” yarımstansiyası müasir texnologiyalar əsasında tam yenidən qurulub.




Ən əsası bu müddətdə işğaldan azad edilən rayonlarda 11 yerdə tikilən 110 kilovoltluq yarımstansiyaları selektiv paylama ilə qidalandırıb, dairəvi elektrik təchizatına nail olmaq üçün 330 kilovoltluq “Cəbrayıl” qovşaq yarımstansiyası ilə 110 kilovoltluq “Qubadlı” yarımstansiyası arasında ötürmə xətti çəkilib. Bu layihənin bir neçə mühüm əhəmiyyəti var. Belə ki, Qarabağ və Şərqi Zəngəzur regionlarını yeni mənbə olaraq qidalandırıb dairəvi elektrik təchizatını təmin etmək, bu bölgələrin dayanıqlı və fasiləsiz elektrik təchizatına nail olmaq, yaradılan meqalayihələrin tələbatını qarşılamaq, BP Günəş və digər bərpaolunan enerji mənbələrində, həmçinin “Xudafərin” və “Qız qalası” elektrik stansiyalarında, o cümlədən işğaldan azad edilən ərazilərdə “Azərenerji” tərəfindən tikilən 25 Su elektrik stansiyasında istehsal olunan enerjini ümumi sistemə ötürmək üçün “Cəbrayıl” enerji qovşağının istismara verilməsi olduqca əhəmiyyətli hadisədir.

Digər tərəfdən perspektivdə Naxçıvan Muxtar Respublikasını Azərbaycanın



ümumi enerji sistemine qoşmaq, həmçinin Cəbrayıl-Naxçıvan-Türkiyə, oradan isə qardaş ölkənin enerji sistemi vasitəsilə Avropa enerji bazarlarına əlavə və daha əlverişli çıxış əldə edib ixrac imkanlarını artırmaq üçün “Cəbrayıl” qovşaq yarımstansiyasının işə düşməsi xüsusi önəm daşıyır.

Mayın 4-də dövlətimizin başçısı 330 kV-luq “Cəbrayıl” qovşaq yarımstansiyasının açılışını edib, yarımstansiyasını işə salıb.

Məlumat verilib ki, üçmərhələli ölkələrarası enerji layihəsini həyata keçirmək üçün “Cəbrayıl” enerji qovşağında tikilən 330 və 110 kV-luq açıq paylayıcı qurğularda əlavə ehtiyat yuvalar yaradılıb. Eyni zamanda, burada avtomatik açılıb-qoşulma, intellektual idarəetmə, operativ monitorinq və digər proseslər üçün Rəqəmsal İdarəetmə Mərkəzi tikilib.

“Cəbrayıl” enerji qovşağının ətrafında Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi ilə əlaqədar irimiqyaslı ağacəkmə və bağsalma aksiyası da keçirilib.

## Cəbrayıl Sənaye parkında yeni müəssisələr fəaliyyət göstərəcək

Vətən müharibəsində Azərbaycanın qazandığı böyük Zəfərlə ərazi bütövlüyümüzün bərpa olunması, işğaldan azad edilmiş torpaqlarımızın ölkə iqtisadiyyatına reinteqrasiyası, regionda mövcud yeni reallıqlar və əməkdaşlıq imkanları, beynəlxalq və regional nəqliyyat-logistika dəhlizlərinin kəsişməsində yerləşən Azərbaycanın sürətli inkişafı üçün əlavə stimul yaradır.



İqtisadi resursları, təbii ehtiyatları, enerji mənbələri, yeraltı metal filizi yataqları, termal suları, tikinti materialları üçün xammal bazası, nəqliyyat-tranzit, turizm imkanları və s. azad edilmiş ərazilərimizə investor marağını da artırır.

Şərqi Zəngəzur iqtisadi rayonunun Arazboyu ərazisinin əsasən düzənlik relyefə və bölgənin cənub istiqamətində giriş qapısı mövqeyinə malik olması “Araz Vadisi İqtisadi Zonası” Sənaye Parkının fəaliyyəti üçün əlverişli şəraiti təmin edir. Logistik imkanlar baxımından əlverişli ərazidə təşkil olunması investorların diqqətini cəlb edən əsas məqamlardan biridir. Belə ki, Sənaye Parkı yeni salınan magistral avtomobil yolu və dəmir yollarının üzərində yerləşir ki, bu da ərazidən həmin magistral yollara birbaşa giriş-çıxışı təmin edəcək. Bu avtomobil və dəmir yolları Zəngəzur dəhlizi vasitəsilə Azərbaycandan Türkiyəyə və Türkiyədən Azərbaycana, eləcə də Azərbaycan ərazisindən Rusiyaya yüklərin daşınması üçün yeni əlverişli imkanlar yaradacaq.

“Araz Vadisi İqtisadi Zonası” Sənaye Parkına sahibkarlar tərəfindən böyük maraq göstərilir. Artıq 5 sahibkarlıq subyekti Parkın rezidenti kimi, 1 sahibkarlıq subyekti isə qeyri-rezident kimi qeydiyyata alınıb. Bu layihələrin reallaşması nəticəsində, ümumilikdə Sənaye Parkına 32,7 milyon manat investisiya yatırılacaq, 420-dən çox daimi iş yeri yaradılacaq.

Dövlətimizin başçısı Cəbrayıl rayonunda “Araz Vadisi İqtisadi Zonası” Sənaye Parkında “Avto Lizinq Azərbaycan” MMC-nin tikintisi ilə tanış olub, “Holcim Azərbaycan” ASC-nin, “Az-Tex-Import” MMC-nin, “Improtex Qarabağ Sənaye Kompleksi” MMC-nin müəssisələrinin təməllərini qoyub.

Məlumat verilib ki, Sənaye Parkı 200 hektar ərazini əhatə edir. Sənaye Parkının prioritet istiqamətləri kimi, logistika və ticarət mərkəzi, anbar kompleksləri, topdan və pərakəndə satış obyektləri, TIR parkı, gömrük, yanacaqdoldurma, avtomobil və digər texnikaların təmiri məntəqələrinin və s. təşkili müəyyənləşdirilib. Sənaye Parkında quruculuq işləri mərhələli şəkildə həyata keçirilir. Parkın ərazisi tam olaraq minalardan və hərbi sursatlardan təmizlənib. Sənaye Parkında fəaliyyət göstərəcək işçilərin və sahibkarların rahatlığının təmin edilməsi məqsədilə mobil şəhərcik salınıb. Şəhərcikdə yataqxana, yeməkxana, ofis, tibb məntəqəsi və aptek, market, qarışıq mallar mağazası, anbar, camaşırxana, bərbərxana, nəzarət buraxılış məntəqəsi quraşdırılıb, əraziyə asfalt yol çəkilib, abadlıq işləri görülüb. Sənaye Parkının ərazisində tikinti aparılacaq sahənin su ilə təmin edilməsi məqsədilə subartezian quyusu qazılıb. Ərazidə 630 kilovoltluq transformator məntəqəsi quraşdırılıb. Parkın işıqlandırılmasında günəş enerjisindən qidalanan panellərdən istifadə edilir. Sənaye Parkının ərazisində topoqrafik və mühəndis-geoloji tədqiqat işləri tam olaraq yekunlaşdırılıb. Hazırda Parkda inzibati binanın tikintisi işləri, rezidentlər üçün infrastruktur sisteminin qurulması, əraziyə dəmir yolu xəttinin çəkilməsi üçün layihələndirmə istiqamətində işlər davam etdirilir.

“Araz Vadisi İqtisadi Zonası” Sənaye Parkında ölkədə mövcud digər sənaye parklarında olduğu kimi, sahibkarlar üçün əlverişli investisiya mühiti formalaşdırılır. Belə ki, Sənaye Parkının rezidentləri dövlət vəsaiti hesabına hazır infrastrukturla (qaz, işıq, su, kanalizasiya, daxili avtomobil və dəmir yolları, fiber-optik və s.) təmin edilir. Eyni zamanda, qeydiyyata alındıqları tarixdən etibarən 10 il müddətinə əmlak vergisindən, torpaq vergisindən, gəlir və ya mənfəət vergisindən, istehsal məqsədilə idxal etdikləri texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı zamanı əlavə dəyər vergisindən və gömrük rüsumlarından azad olunurlar. Bunlarla yanaşı, İqtisadi Zonaların İnkişafı Agentliyi tərəfindən rezidentlərə hər cür təşkilati dəstək tədbirləri göstərilir.

*Ardı Səh. 10*

# Azad torpaqlarımız: Qədim mədəniyyət mərkəzi Cəbrayıl müasir həyata doğru



Əvvəli-Səh-9

Həmçinin bu il yanvarın 1-dən etibarən Vergi Məcəlləsinə edilən dəyişikliyə əsasən, işğaldan azad olunmuş ərazilərdə fəaliyyət göstərəcək sahibkarlar üçün əlavə güzəştlər tətbiq edilir. Buraya sosial sığorta haqlarının subsidiyalaşdırılması, işğaldan azad edilmiş ərazilərdə məskunlaşaraq işləyən mütəxəssislərə güzəştlər də daxildir.

Prezident İlham Əliyev Sənaye Parkında "Avto Lizinq Azərbaycan" MMC-nin tikintisi ilə tanış oldub.

Məlumat verilib ki, Rusiya və Azərbaycan birgə müəssisəsi olan "Avto Lizinq Azərbaycan" MMC tərəfindən Sənaye Parkının 3 hektar ərazisində yük avtomobilləri və kənd təsərrüfatı texnikalarına texniki servis xidmətlərinin göstərilməsi mərkəzi yaradılacaq. Sənaye Parkının ilk rezidenti kimi qeydiyyatdan keçən və 2021-ci il oktyabrın 5-də təməli qoyulan "Avto Lizinq Azərbaycan" MMC-nin texniki servis mərkəzinin tikintisi işləri uğurla davam etdirilir. Ümumi investisiya həcmi 10,2 milyon manat olan müəssisənin inşasına artıq 5,6 milyon manatdan çox investisiya yatırılıb. Müəssisənin fəaliyyətə başlaması ilə 65 nəfər daimi işlə təmin ediləcək. Texniki servis mərkəzinin 2023-cü ildə fəaliyyətə başlaması nəzərdə tutulur.

Sənaye Parkının 5 hektar ərazisində "Holcim Azərbaycan" ASC tərəfindən müasir texnologiyalar əsasında əmtəə beton və quru yapışdırıcı istehsalı üzrə zavod inşa olunacaq. Bununla bərabər, sement satışı üçün terminal da qurulacaq. Ümumi investisiya dəyəri 3,74 milyon manat olan müəssisədə Avropanın qabaqcıl texnologiyalarından istifadə ediləcək. Layihənin həyata keçirilməsi ilə 25 nəfər daimi işlə təmin olunacaq. Zavodda istehsal olunacaq məhsullar regionda dayanıqlı tikintinin həyata keçirilməsinə töhfə verəcək, məhsulların daşınması prosesinin optimallaşdırılması ətraf mühitin qorunmasına xidmət edəcək.

"Mən həmişə deyirəm, çalışmaq lazımdır ki, burada daha çox yerli insanlar işə cəlb edilsinlər. Mənim nümayəndəmlə, nazirliklə də sıx təmasda olmaq lazımdır. Birinci mərhələdə təbii ki, sizin təcrübə toplamış işçilər çalışacaq, amma bir neçə ildən sonra onları yetişdirilmiş sırf yerli kadrlar əvəz etməlidir" deyən Prezident İlham Əliyev "Holcim"in buraya gəlməsinin tarixçəsini də vurğulamışdır: Yadımdadır, Davosda "Holcim"in ovaxtkı rəhbəri mənə yaxınlaşaraq belə bir təklif irəli sürdü. Mən də dərhal razılıq verdim və qısa müddət ərzində o zavod inşa edildi. Ondan sonra Azərbaycanda sement istehsalına maraq artdı. O vaxta qədər biz sementi idxal edirdik. İndi rəqabət də var, o da çox yaxşıdır. Amma "Holcim" hər halda öz keyfiyyət markasını saxlayır".




Daha sonra Prezident İlham Əliyevə məlumat verilib ki, "Az-Tex-Import" MMC tərəfindən Sənaye Parkının 2 hektar ərazisində investisiya həcmi 3,8 milyon manatdan çox olan yük avtomobillərinə texniki servis xidmətlərinin göstərilməsi layihəsi həyata keçiriləcək. Layihə çərçivəsində yük avtomobillərinə texniki servis xidmətlərinin göstərilməsi və daha sonrakı mərhələdə 5 tona qədər yüngül tonnajlı yük avtomobillərinin yığımı nəzərdə tutulur. İtaliya texnologiyasından istifadə ediləcək müəssisədə istehsal olunan məhsullar daxili bazarın tələbatının ödənilməsinə yönəldiləcək. Müəssisədə 25 nəfər işlə təmin ediləcək.

"Az-Tex-Import" MMC tərəfindən Sumqayıt Kimya Sənaye Parkının 4 hektar ərazisində İtaliyanın qabaqcıl texnologiyalarının tətbiqi ilə "IVECO" markalı yüngül, orta və ağır tonnajlı yük və xüsusi təyinatlı avtomobillərin istehsalı layihəsi də həyata keçirilir. Həmin müəssisənin təməli 2022-ci il iyulun 20-də dövlətimizin başçısının iştirakı ilə qoyulub. Hazırda müəssisədə tikinti işləri davam etdirilir. İşlərin 2024-cü ilin birinci yarısında yekunlaşdırılması nəzərdə tutulur. İnvestisiya dəyəri 19,2 milyon manat olan müəssisədə 90 nəfər daimi işlə təmin ediləcək.

"İmprotex Qarabağ Sənaye Kompleksi" MMC tərəfindən "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkında 5 hektar ərazidə investisiya həcmi 7,4 milyon manat olan layihə çərçivəsində mərhələli şəkildə xüsusi təyinatlı texnika və metal məmulatların istehsalı nəzərdə tutulur. Müəssisədə ildə 100 ədəd mexaniki minatəmizləyən, 100 ədəd yanğınsöndürən və 300 ədəd tentli yarımqoşqu istehsal olunacaq. İstehsal edilən məhsulların daxili bazara satılması ilə yanaşı, Xəzəryanı və Şərqi Avropa ölkələrinə ixracı da planlaşdırılır. Layihənin həyata keçirilməsi ilə 120-dən çox iş yeri yaradılacaq.

### Şükürbəyli və Horovlu kəndlərinin təməli qoyulub

Cəbrayıl sakinlərinin öz ata-baba yurdlarına qayıtmaları üçün dövlətimiz tərəfindən hərtərəfli tədbirlər həyata keçirilir. Mayın 4-də ölkəmizin rəhbəri bu məqsədlə Cəbrayılın Şükürbəyli və Horovlu kəndlərinin təməlini qoyub.

Şükürbəyli kəndində 1042 ailənin məskunlaşması planlaşdırılıb. Layihələndirilən ümumi ərazi 298 hektardır. Burada məskunlaşacaq əhalinin yaşayış yükünü nəzərə alaraq, məhəllələrin salınmasının birinci mərhələsi üçün 184 hektar torpaq sahəsi ayrılıb. Bu mərhələdə kənddə 635 fərdi evin tikilməsi nəzərdə tutulur.

Baş plana əsasən, bu kənd ərazi vahidinə görə bir-birinə yaxın olan Dəjəl, Şıxəliağalı kəndləri və Mahmudlu qəsəbəsi ilə birlikdə layihələndirilib.

Norovlu kəndində isə layihələndirilən ümumi ərazi 248,1 hektardır. Perspektivdə bu kənddə 3470 nəfərin (867 ailə) yaşaması nəzərdə tutulub. Baş plana əsasən, köhnə Horovlunun ərazisini əhatə edən bu kənd ərazi vahidinə görə bir-birinə yaxın olan Çapand, Safarşa, Fuğanlı və Həsənqaydı kəndləri ilə birlikdə layihələndirilib. Kəndin dayanıqlı su təchizatını təmin etmək məqsədilə burada əvvəllər mövcud olmuş kəhrizlərin bərpası üçün layihə də həyata keçirilib.

Birinci mərhələdə Horovluya 1395 nəfərin köçürülməsi üçün 334 fərdi ev tikiləcək. İnşa ediləcək evlər iki, üç, dörd və beş otaqlı olacaq.

Hər iki kənddə məktəb binası, uşaq bağçası, inzibati bina, klub icma mərkəzi və çoxfunksiyalı bina, ticarət mərkəzi, bazar, idman sağlamlıq mərkəzi, tibb məntəqəsi, mərasim zalı, məscid, qonaq evinin inşası planlaşdırılıb və kəndlərin hər birində sakinlərin məşğulluğunun təminatı ilə bağlı bütün zəruri tədbirlər görüləcək.

### Cəbrayıl şəhərində orta məktəb tikilir

İşğaldan azad edilmiş ərazilərdə təhsil sisteminin bərpası dövlətimiz tərəfindən diqqətdə saxlanılan əsas məsələlərdən biridir. Odur ki, işğaldan azad edilmiş bütün rayonlarımızda hazırda məktəblər tikilir. Onlardan biri də Cəbrayıl şəhərində tikilən tam orta məktəbdir ki, doğma torpaqlarına geri dönən cəbrayıllı şagirdlər 145 yaşlı orta ümumtəhsil müəssisəsinin ən müasir tələblərə cavab verən yeni binasında təhsil alacaqlar.

Mayın 4-də Cəbrayıl rayonuna səfəri çərçivəsində dövlətimizin başçısı eyniadlı şəhərdə inşa edilən akademik Mehdi Mehdizadə adına tam orta məktəbin binasında aparılan tikinti işlərinin gedişi ilə tanış olub.

Məlumat verilib ki, 960 yerlik yeni məktəb binasının inşasına 2021-ci ilin oktyabrında başlanılıb. Burada şagirdlərin təhsili, təlim-tərbiyəsi ilə yüksək səviyyədə məşğul olmaq üçün hərtərəfli şərait yaradılacaq.

Məktəbin həyətində geniş idman meydançası yaradılacaq ki, bu da sağlam gənc nəslin yetişməsi üçün vacib amillərdəndir.

### Şükürbəylidən Cəbrayıla, oradan Hadruta...

Yollar ölkə iqtisadiyyatının dayaq sütunudur. Yollar abaddırsa, iqtisadiyyat da inkişafdadır. Son 20 ildə yol infrastrukturuna ayrılan vəsait, göstərilən diqqət ölkə tarixinin heç bir zamanında bu qədər olmamışdır. Odur ki, paytaxtdan regionlarımıza uzanan yollar abadlığı ilə göz oxşayır. Yolların abadlığının həm də təhlükəsizlik olduğunu nəzərə alsaq, bu, ölkəmizdə həm də insan amilinə verilən dəyərdir.

Azad torpaqlarımızda da yol infrastrukturu qələbənin ilk günlərindən böyük vəsait qoyulan sahələrdən birincisidir. Odur ki, 30 ildə yerlə yeksan edilən yollar da abadlığına qovuşur.

Şükürbəyli-Cəbrayıl-Hadrut avtomobil yolunun 8,2 kilometrlik hissəsinin istifadəyə verilməsi də görülən işlərin davamıdır. Yol Azərbaycan Prezidentinin 2021-ci il 29 aprel tarixli Sərəncamına əsasən inşa olunur.

Şükürbəyli-Cəbrayıl-Hadrut yolu Qarabağın inkişaf planı nəzərə alınaraq dörd hərəkət zolaqlı olmaqla birinci texniki dərəcəyə uyğun inşa edilib. Yolun üzərindəki 6 körpünün tikintisi başa çatıb. Yol boyunca 18 avtobus dayanacağı quraşdırılıb.

Uzunluğu 42 kilometr olan köhnə yol 2,3 kilometr qısaldılaraq 39,7 kilometrlik yeni yolla əvəzlənib. Yolun hərəkət hissəsinin eni 14,5 metr, torpaq yatağının eni isə 21,5 metrdir.

Dövlətimizin başçısının tapşırığına əsasən, Şükürbəyli-Cəbrayıl-Hadrut avtomobil yolu işğaldan azad edilmiş Xocavənd, Füzuli və Cəbrayıl rayonlarının ərazisindən keçir. Avtomobil yolu Hadrut qəsəbəsi və Cəbrayıl şəhəri də daxil olmaqla həmin rayonların 20-yə yaxın yaşayış məntəqəsini əhatə edəcək.

### Beləliklə, Cəbrayıla yeni həyat gəlir

Bütün azad edilmiş torpaqlarımız kimi, Cəbrayıla da yeni həyatla 30 il əvvəlki çağlarından da gözəl görüntülər bəxş olunur. Nəzərə alsaq ki, dövrümüz 30 il əvvəlkindən daha müasirdir, belə olan təqdirdə bu müasirliyin qədim torpaqlarımıza verəcəyi yenilikləri yaxın gələcəkdə görəcəyik. Qədimliyin fonunda müasirliyin tətbiqi isə hər biri turizm üçün böyük əhəmiyyətə malik torpaqlarımıza gələnləri heyran edəcək.

Cəbrayılda tətbiq olunanlar da yaxın gələcəkdə ata-baba yurdlarına qayıdacaq sakinlər üçün bütün yenilikləri əlçatan edəcək.

Dövlətimizin başçısı necə ki, ötən 20 ildə Qarabağın azad olunması üçün yorulmaz fəaliyyət göstərdi, Zəfəri xalqına nəsib etdi, bu gün də həmin torpaqların qədimliyini qoruyub saxlamaqla müasir formada bərpasına rəhbərlik edir. Bu isə bütün azad torpaqlarımıza təbii ki, yeni həyat gətirir...

***Mətanət Məmmədova***

*Bu gün Azərbaycan istər 2020-ci il sentyabrın 27-nə kimi, istərsə də 27 sentyabrdan bu günə kimi regionda və dünyada mehriban qonşuluq siyasəti yürüdür, böyük dövlətlərlə, nüfuzlu beynəlxalq təşkilatlarla qarşılıqlı faydalı əməkdaşlığı daha da möhkəmləndirir. Belə ki, Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən xarici siyasətin nəticəsidir ki, haqqın, ədalətin, ərazi bütövlüyünün bərpası yolunda, Güclü Orduya, iqtisadi gücə malik olan ölkə kimi tanınır, sözünə etibar olunur. Məhz bunun nəticəsidir ki, Azərbaycanın dünyadakı dostlarının sayı artmaqdadır həmçinin, beynəlxalq təşkilatlarda fəaliyyəti çox müsbətdir. Azərbaycanın mühüm beynəlxalq tədbirlərə uğurla ev sahibliyi etməklə bu sahədə geniş təcrübəyə malik bir dövlətdir.*



# Azərbaycan-Litva: dost və strateji tərəfdaşlar



**MUXTAR NAĞIYEV,**
**YAP Səbail rayon təşkilatının sədri**

Belə ki, Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın may ayının 21-22-də Litva Respublikasına rəsmi səfəri ölkəmizin beynəlxalq əlaqələr coğrafiyasının tənzimlənməsi baxımından mühüm əhəmiyyətə malikdir. Qeyd edək ki, Litva Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkələr sırasındadır və bu gün qarşılıqlı maraqlar üzərində qurulan ikitərəfli münasibətlər strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. Səfər çərçivəsində Azərbaycan və Litva arasında müxtəlif sahələri əhatə edən vacib sənədlərin imzalanması, biznes-forumda iştirakı və hər iki ölkə liderlərinin geniş fikir mübadiləsi əsnasında aparılan önəmli müzakirələr ölkələrimizin strateji tərəfdaşlıq əlaqələrini bir daha təsdiqlədi.

Onu da qeyd edək ki, bu gün Azərbaycan və Litva arasında güclü siyasi əlaqələr, ikitərəfli gündəliyə aid müxtəlif məsələlərin həllinə kömək edən siyasi dialoq mövcuddur. Keçən il Litva Prezidenti Nausedanın Azərbaycana rəsmi səfəri, bu il isə Azərbaycan Prezidenti İlham Əliyevin Litvaya rəsmi, eləcə də cari ilin əvvəlində iki ölkənin dövlət başçılarının Davosda baş tutmuş görüşü onu göstərir ki, ölkə rəhbərləri arasında fəal siyasi dialoq mühiti mövcuddur. Prezident İlham Əliyev Litva Prezidenti Gitanas Nauseda Vilnüsdə mətbuata bəyanatında bildirib ki, Azərbaycan və Litva arasında çox fəal siyasi dialoq aparılır: "Biz bu ilin əvvəlində Davosda da görüşmüşdük. Yəni bu özlüyündə onu göstərir ki, aramızda çox fəal siyasi dialoq aparılır. Və bu dialoq konkret nəticələrlə də tamamlanacaq".

Göründüyü kimi, Azərbaycan və Litva prezidentləri arasında siyasi müstəvidə əldə edilmiş razılaşmalar təbii ki, regionda yeni situasiya yaradır. Bu əlaqələr digər sahələrə də öz müsbət təsirini göstərir. Eyni zamanda, Avropa İttifaqı-Azərbaycan əlaqələrinin inkişafında mühüm rol oynayan Litva həm də NATO üzvü kimi hər zaman ölkəmizə öz dəstəyini əsirgəməyib. Prezident İlham Əliyev öz bəyanatında bu məsələyə bir daha toxunaraq vurğuladı ki, Litva ölkəmizlə Avropa İttifaqı arasında əlaqələrin inkişafına önəmli töhfələr verir. Prezident Nauseda Azərbaycana səfər edəndən iki ay sonra Avropa Komissiyası ilə Azərbaycan arasında Bakıda enerji sahəsində strateji tərəfdaşlıq üzrə Anlaşma Memorandumu imzalanmışdır və bu memorandum uğurla icra edilir. Azərbaycan təbii qazının Avropa bazarlarına nəql edilməsi ilə bağlı çox ciddi addımlar atılır. Nəql edilən, yəni, ixrac edilən qazın həcmi ildən-ilə artır və artacaq. Avropa İttifaqının Cənubi Qafqazda olan geosiyasi maraqları getdikcə böyüyür. Bu gün Aİ ölkələrinin enerji təhlükəsizliyinin təmin olunması məsələsi bu maraqları daha konkret formalarda ortaya qoyur. Avropa İttifaqı 44 günlük müharibədən sonra yaranmış yeni geosiyasi reallığı qəbul edərək regional sülhün bərqərar olunmasına dəstək verir. Bir sözlə, bu gün Prezident İlham Əliyevin son iki ildə keçirdiyi görüşlərin və apardığı danışıqların nəticəsi olaraq rəsmi Bakının yürütdüyü sülh siyasəti Qərb ölkələri tərəfindən tam dəstəklənir.

### BİZİM ERMƏNİSTANA SÜLH TƏKLİFİMİZ QALİB ÖLKƏNİN TƏKLİFİDİR, MÜZƏFFƏR XALQIN TƏKLİFİDİR

Azərbaycan Prezidenti İlham Əliyev mətbuata bəyanatında bir daha Enmənistana öz mesajını göndərdi: "«Ermənistanla anlaşmanın imzalanması qaçılmazdır!". Prezident İlham Əliyev mətbuata bəyanatla çıxışında bildirdi ki, Ermənistan 30 il ərzində Azərbaycan ərazisinin 20 faizini işğal altında saxladı, beynəlxalq hüququ pozdu, BMT Təhlükəsizlik Şurasının qətnamələrinə əməl etmədi və ona qarşı heç bir sanksiya tətbiq olunmadı. Biz hər zaman müharibənin qarşısını almaq üçün Ermənistana qarşı sanksiyaların tətbiq olunmasını istəyirdik. Biz Minsk qrupunun nəticə əldə etməsini gözləyirdik, BMT Təhlükəsizlik Şurasının öz qətnamələrinə hörmət etmələrinigözləyirdik. Lakin heç bir hərəkətin olmadığını gördük və ümumi fikir bundan ibarət idi ki, bu münaqişə dondurulmuşdur.

Qeyd edək ki, Azərbaycan Prezidenti İlham Əliyev görüşlərində, çıxışlarında dəfələrlə vurğulayıb ki, bizim təklifimiz qalib ölkənin təklifidir, güclü tərəfin təklifidir, müzəffər xalqın təklifidir. Ancaq Ermənistan tərəfindən buna reaksiya yoxdur, rəsmi reaksiya yoxdur. Və Ermənistanın bu hərəkəti, çox böyük bir səhv olacaq. Necə ki, müharibə ərəfəsində və müharibə dövründə Ermənistan tərəfi böyük səhvlər buraxıb, hərbi cinayətlər törədib. Bu, növbəti böyük səhv ola bilər. Çünki bizim bu təklifimiz yeni real vəziyyətə əsaslanır. Biz hesab edirik ki, məsələ həll olunub, Ermənistan və Azərbaycan arasında sülh müqaviləsi olmalıdır. Bir-birinin ərazi bütövlüyünün tanınması olmalıdır, sərhədlərin tanınması olmalıdır, delimitasiya işlərinə start verilməlidir. Əgər buna Ermənistanda mənfi reaksiya varsa, bunu da özləri bilərlər. Amma yenə də deyirəm, yenə də peşman olacaqlar. Biz isə bundan sonra ancaq və ancaq irəli gedəcəyik. Biz bütün quruculuq işlərimizlə bağlı planları sistemli şəkildə həyata keçiririk və artıq quruculuq işlərinə start verilib. Biz, dediyim kimi, Qarabağı və Şərqi Zəngəzuru cənnətə çevirəcəyik. İnsanlar ora qayıdacaq, öz dədə-baba torpağında rahat yaşayacaqlar. Ancaq 44 günlük İkinci Vətən müharimbəsindən iki il keçməsinə baxmayaraq Azərbaycan tərəfindən Ermənistanla münasibətlərin normallaşdırılması istiqamətində müəyyən addımlar atılsa da, əfsuslar olsun ki, hələlik real nəticələr əldə olunmayıb. Ermənistan hələ də məcburən öz üzərinə götürdüyü öhdəliklərini yerinə yetirmir. Və Ermənistan tərəfi başa düşməlidir ki, revanşist açıqlamaların, bəyanatlarn, sülh prosesindən yayınmağa cəhd göstərilməsinin onlara heç bir faydası yoxdur. Və nəticədə hesab edirik ki, sülh anlaşmasının imzalanması qaçılmazdır və çalışırıq ki, öz tərəfimizdən bu məqsədə çatmaq üçün konstruktiv səylər göstərək. Təbii ki, bu sülh anlaşması beynəlxalq norma və prinsipləri əhatə etməlidir.

Beləliklə, Prezident İlham Əliyevin Litvaya səfəri iki ölkə arasında qarşılıqlı maraqlara, beynəlxalq hüququn fundamental norma və prinsiplərinə əsaslanan dost və strateji tərəfdaşlıq münasibətlərinin getdikcə inkişaf etməsi üçün yeni imkanların açılması baxımından çox əhəmiyyətli və əlamətdardır. Və iki ölkə arasında mövcud strateji əməkdaşlığın daha da dərinləşdirilməsinə və ikitərəfli münasibətlərin gələcək yol xəritəsinin müəyyənləşdirilməsinə böyük təkan verəcək.

# Ermənistanın bədbin proqnozu

## *Arman Boşyan: “Yeganə nəticə çıxarmaq olar: Ermənistanda Rusiya və İran təsirinin zəifləməsi istiqamətində güclü proses gedir”*



***Ermənistanın “İrəvan geosiyasi klubu”nun rəhbəri, siyasi ekspert Arman Boşyanın fikrincə, ölkə rəhbərliyi regiondakı situasiyanı tam olaraq adekvat qiymətləndirmir, Nikol Paşinyan, sadəcə, həmin situasiyaya uyğunlaşır ki, bu da faciəvi nəticələrə gətirib çıxara bilər.***



Onun sözlərinə görə, ABŞ gərgin geosiyasi situasiyadan istifadə edərək erməni hakimiyyətinin müxtəlif təbəqələrində ən yüksək səviyyədə əldə etdikləri müəyyən razılaşmalar vasitəsi ilə təsir agentləri şəbəkəsini yaratmaq istiqamətində iş aparır. SİA xəbər verir ki, Boşyan “Sputnik Armeniya” saytına USAİD-in Avropa və Avrasiya üzrə büro rəhbəri Erin Elizabet Makkinin Ermənistana səfərini şərh edərkən deyib və qeyd edib ki, bu təşkilat məhz casus şəbəkəsini hazırlamaq üçün yaradılıb. Daha əvvəldən isə bildirilirdi ki, Makki Ermənistana üçgünlük səfərə gəlib və onu təşkilatın müavini Aleksandr Sokolovski müşayiət edib.

### “Qərbin enerji resursları ilə bağlı Cənubi Qafqazda maraqları var”

“Biz Ukraynadakı böhranın kəskinləşməsi ilə dünyada tektonik dəyişikliklərin şahidlərinə çevrilirik. Rusiya Ukrayna cəbhəsində kifayət qədər yüklənib və əbəs deyil ki, USAİD Ermənistanda təsir məqsədləri üçün yeni səviyyədə casus şəbəkəsi yaradır. Belə ki, Ermənistan Respublikası 2018-ci ildən etibarən qərbyönümlü vektor üzrə gedir”, deyə qeyd edən erməni ekspertinin sözlərinə görə, əgər ABŞ Ermənistan hökuməti daxilində təsiredici casus şəbəkəsini yaratmağa nail olarsa, onda Ermənistanı Rusiyadan ayırmaqla regionda amerikalıların maraqlarını müdafiə edə bilər. “Qərbin enerji resursları ilə bağlı Cənubi Qafqazda maraqları var” deyən Boşyan bildirib ki, hazırda Qarabağda Rusiya sülhməramlılarının olması Qərbə maneələr yaradır.

Ekspert əlavə edib ki, ABŞ-dan fərqli olaraq Rusiya hərbi cəhətdən təsir faktoruna sahibdir. Belə ki, yalnız Qarabağdakı sülhməramlılar deyil, həm də Gümrüdəki 102-ci hərbi baza regionda yalnız hərbi deyil, həm də siyasi rol oynayır.

### Amerikalılar Rusiyanın Cənubi Qafqazdakı rolunu zəiflətməyə cəhd edirlər”

Boşyan USAİD rəhbərliyinin Ermənistana nəyə görə məhz indiki zamanda səfər etməsini də izah etməyə çalışıb. Onun sözlərinə görə, Ermənistan bu gün İran, Qərb, Rusiya üzrə balanslaşdırılmış siyasət apardığını sərgiləyir, amma gerçəkliyə qalanda bu siyasət qərbyönümlüdür. “Əslində, Ermənistan 2018-ci ildən Rusiyayönümlü siyasət aparmasına son qoyub. Amerikalılar Rusiyanın Cənubi Qafqazdakı rolunu zəiflətməyə cəhd edirlər və ABŞ-ın səlahiyyətli şəxslərinin Ermənistana səfərləri də bununla bağlıdır. Bu səfər geosiyasi hərəkət məsələsini həll edir”, deyə erməni eksperti bu cür düşünür və o, istisna etmir ki, Qərb erməni siyasi elitasına, yəni mövcud hakimiyyətə öz iqtidarını əlində saxlaması, qoruması üçün vəd verib.

KTMT-yə gəlincə isə, Boşyan bildirib ki, bu təşkilat hazırkı məqamda böhran dövrünü yaşayır və onun regiondakı mövcudluğu böyük sual altındadır. O, bunu sentyabr ayındakı eskalasiya və KTMT-nin etinasızlığı ilə əlaqələndirməyə çalışıb. O sonda bildirib ki, Nikol Paşinyanın qərbyönümlü siyasəti sonradan ölkəni daha asılı vəziyyətə - iqtisadi kollapsa, hətta ərazilərinin itirilməsinə və məhvinə doğru aparacaq.

***Afət Tahirqızı***





**Lalə Mehralı**

# Onda Müəllim “Allah” idi

***İnsanın doğulduğu andan ölümünə qədər ehtiyac duyduğu ən mühüm şey təhsil və tərbiyədir. Ömrümüzün hər mərhələsində təhsilə önəm verir və həyatımızı öyrənməyə həsr edirik - əvvəl özümüz, sonra övladımız üçün. Yaxşını-pisi, gözəli-çirkini, həqiqəti-yalanı, əyrini-düzü kitablardan və müəllimlərimizdən öyrənmişik hamımız.***

Uşaqlarımız ağ kağız misalıdır, üzərinə istədiyiniz hər şeyi yaza, onların həyatını, gələcəyini, davranışlarını, vərdişlərini, xarakterlərini, şəxsiyyətlərini beləcə müəyyənləşdirə bilərsiniz. Bu yolda ən böyük iş də müəllimlərin üzərinə düşür. İşlərini sevirlər, öyrədirlər, bundan həzz alırlar. Müəllimə müəllimlik öyrədən cəhalət olmasa... Yəni, iş o həddə çatıb ki, ömründə iki hərf yazıb, iki cümlə qoşa bilməyən də müəllimləri hədələyir, tədrisini, təlimini bəyənmir, yol göstərir, yol öyrədir.

Mövzusu uşaq tərbiyəsi olan Feysbuk qrupunda bir paylaşım gördüm. Ana yazmışdı ki, müəllim övladıma deyib ki mən sizi izləyirəm, nə işlə məşğul olduğunuzu görürəm, uşaq bunun doğru olub-olmadığını soruşub anasından. Ana məsləhət alırdı valideynlərdən, necə edim ki, nə müəllim yalançı çıxsın, nə də mən. Uşağa nə deyim?

Rəy yazanların əksəriyyəti “müəllim yalançıdır”, ”qələt edir müəllim, uşağıma yalan danışa bilmərəm” kimi cavablar yazmışdı. Yəni, valideynlər hər vəchlə çalışırlar müəllimi uşağın gözündən salsınlar, aralarındakı kontaktı yerlə bir etsinlər. Bunu yəqin ki, şüurlu şəkildə etmirlər, addımı düşünmədən atırlar, bu addımın nələrə səbəb olacağını hesab etmədən, ölçübbiçmədən.

Bizə də deyirdi müəllim, “sehirli güzgüm var, oradan baxıram”. Bu, yalançılıq deyil, aldatma deyil, bir növ tərbiyə metodudur, uşaq olanda hamımız inanmışıq, böyüdükcə niyəsini də anlamışıq. Eyni metodu mən də tətbiq edirəm öz uşaqlarıma. Evin tavanında yanğın zamanı su püskürməsi üçün qoyulmuş klapanlar var, kameraya oxşayır, deyirəm oradan ata da, ana da, müəllimlər də lazım olanda öz kompyuterləri ilə qoşulub sizi görə bilirlər. Çox televizora baxanda, çox dəcəllik edəndə məsələn. Bu, ən sadə nəzarət mexanizmidir. Bizə deyiblər, yalançı, ya da qorxaq böyümüşük? Sovetin pedaqoqlarına lağ edir çox adam, onların yetişdirdiyi nəsilik biz, tərbiyəmiz, mədəniyyətimiz öz yerində.

Yazının başlığını ona görə belə qoydum. Həqiqətən, şişirtmədən öz dövrümün müəllimşagird münasibətinə bundan yaxşı bənzətmə tapmadım. Necə deyib Həzrəti Əli? “Mənə bir hərf öyrədənin 40 il qulu olaram”. İnsani keyfiyyətlərim, mərhəmətim üçün müəllimlərimə çox şey borcluyam. Mən Allahı tanımadan müəllimimi tanımışam, Allahı dərk etmədən müəllimlərimi dərk etmişəm.

Bir-iki ədəbsiz xaric, bizim xalq həmişə müəllimə dəyər verib. Müəllim gözümüzdə ilahiləşib, müqəddəsləşib. Müəllimi məclisin yuxarı başında oturtmuşuq, müəllimin sözünün üstünə söz deməmişik. Belə görmüşük, belə davam edirik. O ədəbsizlər xalq deyil, çoxluq deyil. Çoxluq müəllimin dəyərini anlayır. Qurumuş budaq həmişə, hər sahədə olur. İndi də var, sabah da olacaq. Amma müəllimə atılan daş geri qayıtmayacaq.

# Ermənilərin vəhşi toplum olduğu beynəlxalq sənədlərdə təsdiqini tapır

***Ermənilər bütün dövrlərdə Azərbaycana qarşı ən amansız işğalçılıq siyasəti həyata keçirib. Bu zaman yüz minlərlə insan qətlə yetirilib, on minlərlə yaşayış məskəni dağıdılaraq viran olunub. Bu vəhşi toplum ərazilərimizi dağıdıb talan etməklə yanaşı, həm də mədəni irsimizə, milli-mənəvi dəyərlərimizə göz dikiblər, onları oğurlayıb özününküləşdirməyə çalışıblar. 30 illik işğal zamanı erməni - daşnak terrorçu dəstələri bütün tarixi memarlıq nümunələrini, abidələrini, yaşayış binalarını dağıtmışlar. Hər yeri xarabazarlığa çevirmişlər. Artıq Azərbaycan 44 günlük Vətən müharibəsində parlaq Zəfər qazanmaqla yolumuzu gözləyən yurd yerlərimizdə abadlıq-quruculuq işləri həyata keçirilməkdədir. Lakin yaralar sağalmır. Yüz illər keçsə belə, erməni vəhşi toplumunun Azərbaycan xalqına qarşı vurduğu zərəri, barbar əməlləri unutmayacaq. Bəlkə də Ermənistanla Azərbaycan arasında sülh müqaviləsi imzalanacaq.***

Eləcə də müəyyən sahələrdə formal da olsa görüşlər olacaq, gediş-gəliş baş verəcək. Lakin heç bir azərbaycanlı erməni vəhşilərinin törətdikləri qətliamları, vandalizm aktlarını unutmayacaqlar. Düşünürəm ki, biz bir millət olaraq harada yaşamağımızdan və ya xarici ölkələrə təhsil almağa, istirahət etməyə, iş qurmağa gedərkən erməni toplumunun Azərbaycan ərazilərinə köçürülən toplum olduğunu və özlərinə oyuncaq dövlət yaratdıqdan sonra himayədarlarından aldıqları hərbi, siyasi dəstək hesabına xalqımıza və dövlətimizə vurduqları sağalmaz yaralardan bəhs etməli, açıq və aydın mövqeyimizi ortaya qoymalıyıq. Tarixdə heç zaman erməni milləti olmayıb. Həmçinin, Ermənistan adlı ərazi vahidinə heç bir ciddi qəbul edilən sənədlərdə rast gəlinməyir. Ermənistan sözü 1921-ci ildə Sovet Rusiyasının İrəvan quberniyası ərazisində yaratdığı ərazinin adıdır. Ondan əvvəl "Ermənistan" adı məlum deyil. Lakin tarixən "erməni" etnonimi ermənilərin özünü adlandırması olan "hay" etnonimi ilə üst-üstə düşmür. Haylar Ərməniyyədə - indiki Ermənistan ərazisində heç vaxt etnik çoxluq təşkil etməmişdir. Ermənilərin Ermənistan adlandırdıqları "Hayastan" adı XX əsrin 20-ci illərində yaranmışdır. Tarixdə qeyd edilir ki, ermənilərin əcdadları XII əsrdə Balkan yarımadasından gələrək Kiçik Asiyanın şərqində, Hayasa və Arm əyalətlərində məskunlaşmışlar. XV əsrin ikinci yarısından etibarən Eçmiədzin kilsəsi məskunlaşdıqları həmin əraziləri müxtəlif vasitələrlə azərbaycanlılardan almağa nail oldular. 1747-ci ildə Nadir şahın ölümündən sonra, xanlıqların yarandığı dövrdə İrəvan mahalını Hüseynəli xan idarə edirdi. 1410-cu ildən 1828-ci ilədək İrəvan xanlığını idarə edən 49 türk-azərbaycanlının adı Hovanıs Şahxatunanın tərtib etdiyi siyahıda öz əksini tapmışdır. Fransız missioneri İzriut Monye İrəvanda olanda əhalini siyahıya alarkən qeyd etmişdir ki, XVII əsrin ikinci yarısında İrəvanda yaşayan 4 min nəfər əhalinin 1000 nəfəri ermənidir. 1827-ci ildə rus qoşunları İrəvan qalasını alanda burada əhalinin 74 faizini azərbaycanlılar təşkil edirdi. Qalan 26 faizi isə "boşa" adlanan xristian qaraçılarından, assorilərdən, yezidi kürdlərdən digər millətlərdən ibarət idi. 1829-cu il Ədirnə müqaviləsindən sonra keşiş Baqratuninin başçılığı ilə Ərzurumdan, Qarsdan 90 min erməni İrəvana Qafqazın başqa ərazilərinə gətirildi. 1828-ci ilin yazında isə Qriboyedovun rəhbərliyi ilə 50 min erməni Təbrizdən, Xoydan və b. ərazilərdən köçürülüb Qarabağda, Göycə mahalında yerləşdirildi. Buna qarşı səsini ucaldan azərbaycanlılar cəzalandırıldılar.




### Tərəqqipərvər xalqlar erməni vəhşiliyindən dəhşətə gəlib

Əldə olunan sənədlərə istinadən qeyd olunur ki, 1826-1828-ci illərdə İrəvan xanlığı ərazisində 420-yə qədər azərbaycanlı kəndi dağılaraq yer üzündən silinmişdir. 1905-1920-ci illərdə indiki Ermənistan ərazisində 1000-ə yaxın azərbaycanlı kəndi viran edilmiş, əhalisi soyqırıma məruz qalmışdır. 1918-ci ilin martına qədər İrəvan quberniyasında 198 kənd, 1919-cu ilin son iki ayı ərzində Üçkilsə (Eçmiədzin) və Sürməli qəzalarında 34 kənd, İrəvan qəzasında Zəngibasardan başqa bütün azərbaycanlı kəndləri talan olunmuş, dağılmış və yandırılmışdır. Ermənilər 1918-1920-ci illərdə ADR-in tərkibində olan Zəngəzur, Göycə, Dərələyəz, Qaraqoyunlu mahallarını, eləcə də bir sıra başqa əraziləri zorla öz torpaqlarına qatmaqla 29,8 min. kv. km-lik qondarma "Ermənistan dövləti"nə nail oldular. 1920-ci ildə bu torpaqlara yiyələnən ermənilər 1921-ci ildə Dağlıq Qarabağı da Ermənistana birləşdirmək istədilər. Onların belə fəallığına Nəriman Nərimanov mane oldu. Təkcə 1935-ci ildən 1988-ci ilin avqustuna qədər Ermənistan Ali Sovetinin müxtəlif fərmanları ilə bu ərazidə olan 994 yaşayış məntəqəsindən 517 azərbaycanlı yaşayış məntəqəsinin adı dəyişdirilmişdir. Ali Sovetin fərmanı əsasında addəyişmə əməliyyatı 1935, 1938-39, 1940, 1946, 1950, 1957, 1962, 1967, 1969, 1977-78, 1980-cı illərdə düşünülmüş şəkildə həyata keçirilmişdir. Beləliklə, son 200 ildə indiki Ermənistan ərazisindən 2 mindən artıq Azərbaycan coğrafi adlarını müxtəlif yollarla – rəsmi köçürmə, silah gücü ilə yerlərindən çıxarmaqla, soyqırım törətməklə, kəndləri yandırıb əhalini məhv etməklə siyahıdan – xəritədən silməyə nail oldular. Azərbaycan SSR XKS-in 20 yanvar 1940-cı il tarixli 57 saylı qərarına əsasən, təkcə 1940-cı ilin üç ayı ərzində Azərbaycana yalnız RSFSR-dən 3370 nəfər "fəhlə qüvvəsi" adı altında köçürülərək Bakıda iş və mənzillə təmin olunmuşdur. SSRİ XKS nəzdində iqtisadiyyat şürasının sədri A.Mikoyanın xüsusi canfəşanlığı və tapşırığı ilə 3370 nəfərdən 3220-si respublika əhəmiyyətli təsərrüfat idarələrində "əsasən rəhbər vəzifələrə təyin edilmişdir". A.Mikoyanın razılığı əsasında Bakıda yaradılmış köçürülmə şöbəsinə başçılıq edən N.Mirzoyan fürsəti əldən verməyərək "əzabkeş", "başı min bir bəlalar çəkmiş" ermənilərin də Bakıda mənzil və işlə təmin edilməsinə əlverişli şərait yaratmışdır. Fəaliyyət göstərən şöbə 1940-cı ilin ikinci rübündə DQMV-dən 1440 ermənin Bakıya köçürülməsinə şərait yaratdı. Həmin illərdə Azərbaycanın şəhər, qəsəbə, rayon və kəndlərindən Bakıda qeydiyyata düşmək dövlət səviyyəsində qadağan olunmuşdu. A.Mikoyanın göndərdiyi məktuba əsasən, 1941-ci ildə 211 nəfər Stalinqraddan, Rostovdan Rusiyanın digər bölgələrindən Azərbaycana köçürülmüşdür. 1941-ci ilin sonlarında SSRİ XKS nəzdində köçürmə idarəsinin rəisinə göndərilən məktubda Rusiyanın ayrı-ayrı bölgələrindən 354 ailə Əli Bayramlı, Xaçmaz rayonlarında yerləşdirilmişdir. 1942-ci ildə Dağıstandan 900 ailə Azərbaycana köçürülmüşdür. Köçürülənlər, əsasən, ruslar, ermənilər və Dağıstandan gələnlər idi. Xaricdə yaşayan ermənilərin Ermənistana köçürülməsi fürsətini əldən verməyən ermənilər ilk dəfə 1943-cü il 28 noyabr- 1 dekabrda SSRİ, ABŞ və İngiltərənin iştirak etdiyi Tehran konfransı zamanı əldə etdilər. Konfrans ərəfəsində hiyləgər erməni diasporunun rəhbərləri ölkənin xarici ilşlər naziri V.M.Molotovla əlaqə yaratmış, xaricdə yaşayan ermənilərin Ermənistana köçürülməsi üçün Sovet dövləti başçısının razılıq verməsini xahiş etmişlər. Molotov elə oradan Stalinlə telefon danışığından sonra onun razılığını almışdır. Məkirli ermənilərə elə bu lazım idi. 1945-ci ilin aprelində dünya ermənilərinin patriarx-katalikosunun müavini Georq (Çeorskiyan) ərizə ilə Stalinə müraciət edərək dünya ermənilərinin dini mərkəzi olan Eçmiədzin monastırının fəaliyyətinə icazə verməsi üçün razılıq istəyir. Aprelin 19-da Stalin öz xətti ilə "razıyam" yazandan sonra SSRİ XKS 1945-ci ilə noyabrın 21-də xüsusi qərarında xaricdən ermənilərin gəlməsinə razılığını bildirmişdir. 1946-cı ilin yanvarında 130 min erməni Ermənistana köçmək üçün Moskvaya müraciət edir. Artıq 1946-cı ildə Suriya, Yunanıstan, Livan, İran, Bolqarıstan və Rumıniyadan 50,9 min nəfər,1947-ci ildə Fələstin, Fransa, ABŞ, Yunanıstan, Misir və Livadan 35,4 min erməni Ermənistan torpaqlarında yerləşdirilir. Bununla kifayətlənməyən ermənilər və Ermənistan KP MK- nın birinci katibi Q. Arutyunov yaranmış vəziyyəti əldən verməyərək 100 min azərbaycanlı əhalinin azərbaycana köçürülməsinə Stalinin razılıq verməsini xahiş edir.






Konfrans ərəfəsində hiyləgər erməni diasporunun rəhbərləri ölkənin xarici ilşlər naziri V.M.Molotovla əlaqə yaratmış, xaricdə yaşayan ermənilərin Ermənistana köçürülməsi üçün Sovet dövləti başçısının razılıq verməsini xahiş etmişlər. Molotov elə oradan Stalinlə telefon danışığından sonra onun razılığını almışdır. Məkirli ermənilərə elə bu lazım idi. 1945-ci ilin aprelində dünya ermənilərinin patriarx-katalikosunun müavini Georq (Çeorskiyan) ərizə ilə Stalinə müraciət edərək dünya ermənilərinin dini mərkəzi olan Eçmiədzin monastırının fəaliyyətinə icazə verməsi üçün razılıq istəyir. Aprelin 19-da Stalin öz xətti ilə "razıyam" yazandan sonra SSRİ XKS 1945-ci ilə noyabrın 21-də xüsusi qərarında xaricdən ermənilərin gəlməsinə razılığını bildirmişdir. 1946-cı ilin yanvarında 130 min erməni Ermənistana köçmək üçün Moskvaya müraciət edir.

***Ardı Səh. 14***

# Ermənilərin vəhşi toplum olduğu beynəlxalq sənədlərdə təsdiqini tapır



Bakıda erməni vəhşilikləri.

Əvvəli-Səh-13

Artıq 1946-cı ildə Suriya, Yunanıstan, Livan, İran, Bolqarıstan və Rumıniyadan 50,9 min nəfər,1947-ci ildə Fələstin, Fransa, ABŞ, Yunanıstan, Misir və Livadan 35,4 min erməni Ermənistan torpaqlarında yerləşdirilir. Bununla kifayətlənməyən ermənilər və Ermənistan KP MK- nın birinci katibi Q. Arutyunov yaranmış vəziyyəti əldən verməyərək 100 min azərbaycanlı əhalinin azərbaycana köçürülməsinə Stalinin razılıq verməsini xahiş edir.

A.Mikoyanın canfəşanlığının nəticəsində erməni lobbisi azəri-türklərin yaşadıqları dədə-baba yurdlarından Azərbaycanın Kür-Araz ovalığına köçürülməsi üçün zəmin hazırlanmasına nail oldu. 1945-ci il oktyabr 20-də SSRİ XKS 2264 saylı qərar qəbul etmişdir. Bu azmış kimi Q. Arutyunov 1945-ci ilin 28 noyabrında Qarabağın Ermənistana birləşdirilməsi təklifini ÜİK /b/ PMK-nın sərəncamına verdi. Stalin həmin məktubu Malenkova, o isə öz növbəsində cavab üçün onu Azərbaycan rəhbərliyinə göndərdi ki, Ermənistan K/b/ PMK-nın təklifinə öz münasibətini bildirsin. Azərbaycan hökuməti 1945-ci il dekabrın 10-da 330 saylı sənədlə göndərilən cavabında erməni hökumətinin irəli sürdüyü bütün iddialarının əsassız olduğunu göstərdi. M.Bağırov qeyd etmişdi ki, Qarabağın ərazisi Qarabağ xanlığının ərazisində olmuşdur və xanlığın mərkəzi də Pənahabad - Şuşa idi. Bu qala Qarabağ xanı Pənah xan tərəfindən tikilmişdir. 1826-cı ildə bu xanlıq çar Rusiyasına birləşdirildikdən sonra indiki Qarabağın ərazisi Yelizovetpol quberniyasının Şuşa, Cavanşir, Füzuli və Qubadlı qəzalarının tərkibində idi. 1918-1920-ci illərdə bütün Qarabağ ərazisində mərkəz Şuşa olmaqla Qarabağ general-qubernatorluğu təşkil edildi. Daşnak bandaları Şuşa və digər şəhərləri dağıdıb oda qərq etdilər.

### Stalin rejimi Qarabağda separatizmin əsasını qoymağa nail oldu

1923-cü ildə Qarabağın dağlıq hissəsinin – ermənilərin çox olduğu yerin Ermənistana birləşdirilməsi məsələsi ortaya atıldı. Bu ərazinin Ermənistanla ümumi əlaqəsi olmadığına və bura Qubadlı, Laçın, Kəlbəcər, Dəstəfur rayonları ilə ayrı olduğuna, burada əhali azərbaycanlılardan ibarət olduğuna görə Azərbaycan MİK-nın 1923-cü il 7 iyul tarixli dekreti ilə mərkəz Xankəndi vilayət yaradıldı. Qarabağ ərazisi cəhətdən Ermənistanla heç vaxt yaxın olmayıb. M.Bağırov ÜİK/b/ PMK-nın nəzərinə bunları çatdırdı ki, Qarabağın Ermənistana daxil edilməsi məsələsinə baxarkən, eləcə də əhalinin əksəriyyəti azərbaycanlılardan ibarət olan və bizim sərhədlərə yaxın olan Əzizbəyov, Vedi və Qarabağlar rayonlarının tərkibinə qatılması məsələsinə də baxılsın. UİK/b/ PMK-dan xahiş olunurdu ki, bu məsələlərə də baxılsın. Gürcüstan hökuməti də Azərbaycanın Balakən, Zaqatala və Qax rayonlarının onlara verilməsi məsələsini qaldırır. Bu bölgədə 79 min əhalidən 9 mini gürcü-inqiloylardır. Biz bunun baxılmasına da etiraz etmirik. O halda ki, Gürcüstanın tərkibində olan Borçalı rayonunun Azərbaycana birləşdirilməsinə baxılsın. Keçmişdə Azərbaycanın tərkib hissəsi olmuş Bakı quberniyasına daxil olan Dərbənd və Qasımkənd ərazilərini Azərbaycanın tərkibinə daxil edilməsi məsələsinə də baxasınız. Onlar maldarlıqla məşğul olur və ilin 9 ayını bizim ərazidə olurlar. M. Bağırovun bu əsaslı cavabı çoxlarını susdurdu. Irəli sürülən bu şərtlər, Ermənistan bir yana, heç mərkəzi də təmin edə bilmirdi. Artıq ermənilər yaşayış məntəqələrini siyahısını əvvəlcədən hazırlamışdılar. Azərbaycanlıları əsasən İrəvan şəhəri və ona yaxın olan rayonlar – Əştərək, Zəngibaşar, Eçmiədzin, Oktenberyan, Qəmərli (yeni adı Artaşat), Qarabağlar, Vedi, Axta (Razdan), Əzizbəyov və s. rayonlara daxil etmişdilər. Mikoyan-Stalin-Arutyunov sövdələşməsi SSRİ NS-in "Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli qərarı ilə nəticələnir. Bu, xalqımıza qarşı ən ağır zərbə, əsil represiya idi. Ermənistandan 100 min əhalinin köçürülməsi ilə bağlı tədbirlər planı - ən mühüm məsələ yalnız 2 ay 18 gündən sonra – 10 mart 1948-ci il tarixdə SSRİ NS-in "Ermənistan SSR ərazisində kolxozçuların və digər azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqında" 754 saylı qərarında öz əksini tapmaqla şərh edilmişdir. Bu qərara əsasən, 1948-1953-cü illərdə "könüllülük" adı altında azərbaycanlıların indi Ermənistan adlanan qədim oğuz yurdlarından köçürülməsinə başlanıldı. Erməni millətçiləri üçün kolxozçuların iriləşdirilməsi, perspektivsiz kəndlərin ləğv olunması kampaniyasının başlanması nəzərdə tutulan işi həyata keçirmək rolu oynadı. Qərarda göstərilirdi ki, 100 min kolxozçu əhali Kür-Araz ovalığına köçürülsün. Onlardan 10 min nəfəri 1948-ci ildə, 40 mini 1949-cu ildə, 50 min nəfəri isə 1950-ci ildə köçürülmüşdür.

### Qərbi Azərbaycandan azərbaycanlıların köçürülməsi

Azərbaycan hökumətinin 1948-ci il 13 may tarixli qərarına görə, Ermənistandan, Yerevan şəhərinin Stalin və Spandaryan rayonlarından, həmçinin Basarkeçər, Vedi, Artaşat, Noemberyan, Oktemberyan, Zəngibasar və digər bölgələrindən 12177 nəfərin Azərbaycan Respublikasına köçürülməsi planlaşdırılmışdı. Əhalinin 6215 nəfərini Kür-Araz ovalığında, 5962 nəfərini isə Azərbaycanın digər bölgələrində yerləşdirmək nəzərə alınmışdır. Köçürülənlər Bakı şəhərinin Əzizbəyov, Voroşilov rayonlarında, eləcə də Gədəbəy, Xanlar, Quba, Bərdə, Ağstafa, Ucar, Ağcabədi, Salyan rayonlarının kəndlərində yerləşdirilməli idilər. Öz ata-baba yurdları olan Ermənistandan Azərbaycanı Kür-Araz ovalığına ilk köçürülənlər 1948-ci ilin iyun ayının əvvəllərində gəlirlər. İlk köçürülən Azərbaycanlı ailəsi indiki Beyləqan rayonundakı sovxozlarda yerləşdirilmişdir. Onlar sovxoz rəhbərliyi tərəfindən miçətkənlə, həmçinin torpaq sahəsi və əkin üçün toxumla da təmin olundular. 1948-ci ilin yazınadək deportasiyanın ilk qurbanlarından 320 ailə Salyan, 140 ailə Saatli, 545 ailə Sabirabad, 260 ailə Əli Bayramlı, 150 ailə Puşkin, 75 ailə Ağcabədi, 100 ailə Xilli rayonlarının quru çöllərində, susuz səhralarında, ilan mələyən düzənliklərdə yaşamağa məcbur edildi. Bu, 6400 nəfəri birləşdirən 1590 ailə idi. Həmin ilin yay aylarında deportasiya olunanların ikinci dəstəsi indiki Ermənistandan doğulub boya-başa çatdıqları doğma torpaqlarından köçürüldülər. Bunlardan 12177 nəfər Azərbaycana pənah gətirdi. 1949-cu il noyabrın 25-də Ermənistan ərazisini bir neçə rayonundan 2500 nəfər Azərbaycana deportasiya edildi. Beləliklə, 1949-cu ildə Ermənistandan azərbaycanlı əhali kütləvi şəkildə Kür-Araz ovalığındakı Zərdab, Əli Bayramlı, Kürdəmir, Mingəçevir, Salyan, Yevlax və digər rayonlara köçürülür.

### 1948-1953-cü illərdə 180 min azərbaycanlı zorla öz tarixi- etnik torpaqlarından deportasiya edildi

O dövrdə Ermənistanın dağlıq rayonlarından köçürülən azərbaycanlılar doğma yurdlarının təbii şəraitinə uyğun olan Qarabağ ərazisində yerləşdirilsəydi, faciəli ölüm halları olmaz, həm də bugünkü faciələrimizin kökü elə o zaman kəsilərdi. Lakin bu, belə olmadı. Təəssüf ki, ermənilər Azərbaycanda bütün sahələrdə işlə təmin olundular. Onlar zaman-zaman fürsət düşdükcə azərbaycanlılara qarşı millətçi və terrorçu siyasətlərini davam etdirmişlər. Ermənilərin "türksüz Ermənistan" siyasətinin bir mərhələsi olan 1948-1953-cü illərdə 180 min azərbaycanlı zorla öz tarixi-etnik torpaqlarından deportasiya edildi. Amma Azərbaycan xalqı 1948-1949-cu illərdə və eləcə də sonrakı dövrlərdə ermənilər tərəfindən deportasiyaya məruz qalmış və bu işi 1988-ci ildə yenidən bir daha həyata keçirdilər. Bu, bizim xalqımıza qarşı edilən yeni bir ədalətsizliyin nəticəsidir. Düşünülmüş şəkildə ermənilərin törətdikləri etnik təmizləmə ardıcıl şəkildə tarix boyu davam etmişdir. Təəssüflər olsun ki, biz tarixin müxtəlif mərhələlərində belə hadisələri dərindən dərk etməmiş və xalqımıza edilən haqsızlıqlara qarşı öz səsimizi vaxtında və qədərincə qaldırmamışıq. Məhz bunların nəticəsində 1988-ci ildə erməni daşnak ünsürləri öz rəhbərlərinin tapşırığını yerinə yetirərək xalqımıza qarşı təcavüz etdilər. Öz yurdlarından zorla qısa müddətdə çıxarıldılar. Ermənistan adlanan ərazinin çox hissəsi azərbaycanlıların əsrlərlə yaşadıqları doğma diyar olmuşdur. Bu, ərazidə yaşayan azərbaycanlıların tədricən çıxarılmasına və 1988-ci ildə Ermənistanın Azərbaycana hərbi təcavüzünün başlanmasına gətirib çıxardı. Bütün bu fəlakətlər o zamankı Azərbaycan rəhbərlərinin qorxaqlığı öz vəzifələrindən möhkəm yapışmaları nəticəsində baş verdi. Ədalətsizlik və işğal siyasəti yalnız 2020-ci il 27 sentyabrdan başlayan və 44 gün davam edən Vətən müharibəsi ilə başa çatdı. Artıq ağrılı-acılı günlər arxada qalıb. Qalib Azərbaycan xalqı dağıdılmış ərazilərimizdə quruculuq abadlıq işlərini həyata keçirməkdədir. Yaxın vaxtlarda bütün keçmiş qaçqın və məcburi köçkünlər öz doğma yurd yuvalarına qayıdacaq və Qarabağın hər bir guşəsi əbədi rahatlıq tapacaq.

***İ.ƏLİYEV***



**Mətanət Məmmədova**

## Səhiyyə yamaqları

***Bu gün oxuduğum bir xəbərlə bundan başqa qənaətə gələ də bilməzdim. İnsanların sağlamlığı ilə alver edənlər görəsən bununla onlara sağlamlıq bəxş edirlər, yoxsa sağlamlıqlarını əllərindən alırlar? Bəlkə qəsdən bu hərəkətləri ilə vətəndaşları xəstə edib özləri üçün gəlir mənbəyinə çevirirlər.***

Məlumata nəzər salaq. Masallı rayonunun baş həkimi Eşqin Əliyev Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin əməkdaşları tərəfindən vətəndaşdan rüşvət alarkən yaxalanıb. Məlum olub ki, əməliyyat tədbirləri ilə Eşqin Əliyevin cari il ərzində vətəndaşlara təqaüdün təyinatı, xəstəliklərə dair göndərişin elektron informasiya sisteminə yüklənməsi, eləcə də xəstəxanada şəxslərin işə qəbul edilməsi, ixtisasının dəyişdirilməsi müqabilində müxtəlif məbləğlərdə rüşvət almasına əsaslı şübhələr müəyyən edilib. Eşqin Əliyevin üzərində və xidməti otağında axtarış aparılan zaman iş üçün əhəmiyyət kəsb edə biləcək sübutlar aşkar edilib.

Qeyd edilənlərlə bağlı cinayət işi başlanıb, Eşqin Əliyev Cinayət Məcəlləsinin 311.3.2 (təkrar rüşvət alma), 178.2.3 (şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə dələduzluq) və digər maddələri ilə təqsirli bilinərək barəsində həbs qətimkan tədbiri seçilib. İş üzrə istintaq və əməliyyat-axtarış tədbirləri davam etdirilir.

Daha maraqlısı isə budur ki, məlumata əsasən Eşqin Əliyev son iki ildə Masallı xəstəxanasının baş həkimi vəzifəsindən kənarlaşdırılan sayca 3-cü şəxsdir. Belə ki, 2021-ci ilin yanvarında xəstəxananın əvvəlki baş həkimi Cəlil Nəzərov 675 min manat mənimsəməkdə ittiham olunaraq həbs edilib. Cəlil Nəzərovdan sonra baş həkim təyin edilən Rasim Əzizov da qalmaqallı şəkildə işdən çıxarılıb. Belə ki, keçən ilin payızında R.Əzizovun marketlərdən birində oğurluq etməsini iddia edən görüntülər sosial şəbəkələrdə və mediada sürətlə yayılıb. Bundan sonra xəstəxananın baş həkimi 2021-ci ilin noyabrında işdən çıxarılıb. Bəxtəvər səhiyyəmizin başına...

Həqiqətən də atalarımız lap yerindəcə deyiblər: utanmasan oynamağa nə var ki... Masallının baş həkimləri də utanmadan oynayıblar, lakin unudublar ki, rəqslərini kənardan seyr edənlər də var. İnsanların sağlamlığı ilə oynamaq pul yığmaq, varlanmaq eşqində olanların özlərini oyuna salıb.

Çox təəssüfedici haldır ki, məhz Masallıda bir-birinin ardınca belə baş həkimlər peyda olub. Bəs insanlar sağlamlıqları üçün bu rayondan çıxıb hara getməlidirlər? Bu rayonun sakinlərinin sağlamlıq taleyi görün kimlərin öhdəsinə buraxılıbmış. Bunlar bir-birinin ardınca elə bil insanların qəsdinə düzülübmüşlər.

Həkim adına yaraşmayan hərəkətlərin, əməllərin son ünvanı elə həbsxana olmalıdır. Beləlәri bəlkə insan sağlamlığı ilə oynamağın nə demək olduğunu bu yeni ünvanlarında daha yaxşı anlayarlar. Görünür baş həkim otağı bunlar üçün yetərli ünvan olmayıb. Burada yalnız səhiyyəyə yamaq rolunu icra ediblər.

Səhiyyə adına yamaq olanlara ar olsun!

***"Revanşistlər üçün yeganə çıxış yolu Paşinyanın fiziki məhv edilməsidir, lakin bu belə Ermənistanın son çıxış yolundan imtina etməsinə gətirməyəcək"***





Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük "Vətən Müharibəsi"ndə qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması" istiqaməti çərçivəsində hazırlanıb.*

# Andrey Petrov: "Danışıqlar prosesində Azərbaycan üstün mövqedədir"








Separatçı qruplaşmanın qalıqlarının zorakılıqla fəallaşması erməni revanşizminin ölməz tendensiyasıdır. Bu partlayış reaksiyası Ermənistanın baş naziri Paşinyanın bir daha Azərbaycanın ərazi bütövlüyünü, ən əsası isə Qarabağı onun tərkib hissəsi kimi tanıyan bəyanatları ilə daha da vüsət aldı. Alçaldılmış "dövlət naziri" Vardanyan bu xorda öz partiyasına səylə rəhbərlik edir, açıq şəkildə Paşinyanı xəyanətdə ittiham edir. Ondan sonra ortada özünü "Artsaxın prezidenti" adlandıran Arayik Arutyunyan var. Etiraf etmək lazımdır ki, bu dəfə qışqırıqlar xüsusilə gurultulu, xarici mediaya çıxışı olan, eyni zamanda, vəhşicəsinədir. Eyni zamanda, təkcə Paşinyan və onun hakimiyyətini devirmək təhlükəsi deyil, fiziki zorakılıq çağırışları da var.

"Vestnik Kavkaza" informasiya agentliyinin baş direktorunun müavini Andrey Petrov "Caliber" analitik mərkəzinə şərhində mövcud vəziyyətlə bağlı fikirlərini bildirib. O, hesab edir ki, Paşinyanın Ermənistanın Qarabağı Azərbaycanın bir hissəsi kimi tanıması ilə bağlı bəyanatının erməni millətçiləri və Qarabağ separatçılarının qalıqları tərəfindən inkar, hiddət və təhdid fırtınasına səbəb olacağı tamamilə proqnozlaşdırılan idi.

"Onlar başqa cür reaksiya verə bilməzdilər, çünki Paşinyan açıq şəkildə bəyan etdi ki, İrəvan Qarabağdakı separatçı layihəni bağlayır və bu layihəni quran, maliyyələşdirən və dəstəkləyən qüvvələr Paşinyanın bu məsələnin əbədi bitəcəyi barədə bəyanatını qəbul edib səssizcə uda bilmədi. Onlar üçün bu, şəxsi miqyaslı faciədir, özlərinin uzunmüddətli zənginləşmə mənbəyinin itirilməsidir.

Təhdidlərin dərəcəsinə gəlincə, məncə, Paşinyanı ən azı siyasi baxımdan heç nə təhdid etmir. Həmin Ruben Vardanyan və digər Qarabağ separatçıları, eləcə də Ermənistandakı revanşistlər onun qeyri-legitim baş nazir olduğunu deyirlər. Ona görə də, deyirlər ki, onun dediklərinə fikir vermək olmaz, ancaq o belə düşünür və iddia edir. Əlbəttə ki, bu yalandır, baxmayaraq ki, qərar verəcək tək Paşinyan olmayacaq, parlament buna səs verəcək, hökumətin müzakirəyə çıxardığı hər şeyə parlament səs verəcək", - rusiyalı ekspert politoloq vurğulayır.

Və o, əmindir ki, bu, baş verəcək, çünki səslərin əksəriyyəti 2021-ci ildə keçirilən növbədənkənar parlament seçkilərində ən zəifləmiş vəziyyətdə olmasına baxmayaraq, bütün rəqiblərini inandırıcı şəkildə məğlub edən Paşinyanın partiyasına məxsusdur.

"Yeni Ermənistan vətəndaşları seçim azadlığından istifadə edərək yenə də Paşinyanı və onun komandasını seçiblər. Ona görə də onun indi gördüyü hər şey erməni xalqının, ən azı erməni çoxluğunun iradəsidir",- A.Petrov qeyd edir.

Daha sonra politoloq hesab edir ki, ermənilər 2021-ci ildə qisasın, Azərbaycanla müharibə olmasının, oğullarının və atalarının ölümünün əleyhinə səs veriblər. Və o vaxtdan bəri heç nə dəyişməyib-insanlar müharibə istəmir və Paşinyan Azərbaycanla münasibətlərin tamamilə normallaşdırılmasını təklif edəndə erməni əksəriyyəti burada, ilk növbədə, öz istəyini və iradəsini görür. Ona görə də A.Petrovun şübhəsi yoxdur ki, nə Qarabağ separatçıları, nə də erməni revanşistləri Azərbaycanın ərazi bütövlüyünün tanınması ilə, eləcə də separatçı layihənin iflasa uğradığını etiraf etməklə heç nə edə bilməzlər. Onların edə biləcəyi yeganə şey, onun fikrincə, Paşinyanın fiziki olaraq uzaqlaşdırılmasıdır.

"Amma mən hesab edirəm ki, o olmasa belə, Ermənistan-Azərbaycan nizamlanması prosesi yalnız bir müddət səngiyəcək. Çox güman ki, onun yerinə öz fraksiyasından kimsə gələcək. Və düşünürəm ki, kurs eyni istiqamətdə gedəcək, çünki təkcə Rusiya və Azərbaycan deyil, erməni ictimaiyyəti də bunda israrlıdır. İrəvan, əlbəttə ki, belə demək mümkünsə, qarşıdurmanı canlandırmağa mümkün qədər az diqqət yetirməyə üstünlük verir, baxmayaraq ki, vaxtaşırı onu nəyəsə məcbur edirlər. Amma bunda Rusiyanı qabaqlamaq, yəni Cənubi Qafqazda nüfuz uğrunda diplomatik mübarizədə qalib gəlmək istəyənlər də Ermənistanın Qərb sponsorlarıdır. Güc mərkəzləri- Aİ və ABŞ üçün bəzi nəticələr həm Rusiyaya, həm də dünyaya nəyisə öz nailiyyətləri kimi təqdim etmək üçün indi son dərəcə vacibdir"-deyə rusiyalı ekspert hesab edir. Onun fikrincə, bu prosesdə Azərbaycan qalib mövqedədir, çünki 44 günlük müharibənin qalibi kimi Ermənistana öz şərtlərini diktə edir və Qərb Bakıya təzyiq edə bilməz, çünki o, hazırda Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində onun mühüm tərəfdaşıdır.

"Amma Qərb istəsə Yerevana kifayət qədər sakit şəkildə təzyiq edə bilər, amma avropalıların burada iqtisadi, həm də siyasi faydası yoxdur. Paşinyan artıq Ermənistanda iki illik müddətə avropalı müşahidəçilər missiyasını yerləşdirib. Ermənistan isə Qərblə qalmaq istədiyindən, bir çox şərtləri qoya bilər. O cümlədən Azərbaycanla sülh müqaviləsinin imzalanması. Bu isə Qarabağdakı separatçı layihənin rədd edilməsi və Azərbaycanın ərazi bütövlüyünün tanınması deməkdir",- politoloq əmindir.

Deməli, hətta Paşinyanın ölümü belə, A.Petrovun fikrincə, Ermənistanın siyasi gündəminin mahiyyətini dəyişməyəcək, onun yerinə yenə eyni Paşinyanın partiyasından sadəcə bir qərb tərəfdarı gələcək və növbədənkənar parlament seçkilərinin, hətta belə bir fövqəladə şəraitdə də keçirilməsi baş verə bilər. Ermənistan qanunlarına əsasən belə tələb olunur.

"Ona görə də separatçıların və revanşistlərin indi qadir olduqları yeganə şey Nikol Paşinyana qarşı fiziki nifrətdir, bu kontekstdə indi onlar baş nazirə və Azərbaycana qarşı çox dəhşətli sözlər və təhdidlər səsləndirəcək, sülhməramların zonasında bir neçə mitinq təşkil edəcəklər. Amma İrəvanda da əmindirlər ki, bunun Azərbaycanın Qarabağ iqtisadi rayonunda havanı silkələməkdən başqa heç bir effekt olmayacaq. Reallıq göstərir ki, Paşinyanın devrilməsi, hətta 2020-ci ilin noyabrında onun ən yaralı vəziyyətdə olduğu və ölkəsini həqiqətən Azərbaycanla dinc yanaşı yaşamağa yaxınlaşdırdığı vaxt da mümkün olmadı", - deyə A.Petrov bildirib.

***Tərcümə - Elçin Bayramlı***

SON SƏHİFƏ

# SƏS

26 may
2023-cü il

# Bələdiyyələr vətəndaşları necə aldadır?



HÜQUQŞÜNAS AÇIQLADI

***"İlk olaraq qeyd edim ki, bələdiyyələr çıxarış verə bilməz. Yəni, Azərbaycanda daşınmaz əmlakın qeydiyyatını Daşınmaz Əmlakın Dövlət Reyestri aparır və çıxarışları da ancaq onlar verir". Bu sözləri SİA-ya açıqlamasında hüquqşünas Əkrəm Hüseynov deyib.***

Onun sözlərinə görə, Azərbaycanda mülkiyyətin üç forması var: "Bunlara dövlət, bələdiyyə və özəl (xüsusi) mülkiyyət forması aiddir. Yəni, kimsə nə isə satırsa, hətta mən dövlətdən nə isə alıramsa, dövlətin hər hansı bir orqanı ilə müqavilə bağlayıram. Yekunda Daşınmaz Əmlakın Dövlət Reyestri çıxarış verməlidir ki, mənim mülkiyyət hüququm tanınsın. Eynilə bələdiyyə də belədir. Əgər, mən bələdiyyə ilə alqı-satqı müqaviləsi bağlayıramsa, bu ilk öncə notarial olmalıdır. Həmin müqaviləni aparıb Daşınmaz Əmlakın Dövlət Reyestrinə verməli və çıxarış almalıyam. Belə çıxarışı başqa heç kim verə bilməz. Yəni, bələdiyyə çıxarış verə bilməz, ancaq müqavilə bağlaya bilər. Müqavilə də heç bir daşınmaz əmlak üzərində mülkiyyət hüququnu təsdiq edən sənəd deyil. Əgər müəyyən olunsa ki, ümumiyyətlə bələdiyyənin həmin ərazini satmaq hüququ yoxdur, buna görə də məsuliyyət daşıyırlar".

*Ayşən*

# Avtomobillərin qiyməti hansı hallarda ucuzlaşacaq?

***Məlum olduğu üzrə, Azərbaycanda istehsal olunan minik avtomobillərinin satışı əlavə dəyər vergisindən (ƏDV) azad olunacaq. Bu, Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin mayın 18-də keçirilən iclasında müzakirə olunan və parlamentin plenar iclasına tövsiyə edilən Vergi Məcəlləsinə təklif olunan dəyişiklikdə əksini tapıb. Layihəyə əsasən, ölkə ərazisində istehsal olunan minik avtomobillərinin satışı 2023-cü il mayın 1-dən 10 il müddətinə ƏDV-dən azad olunacaq.***



Dəyişiklik ölkə ərazisində minik avtomobillərinin istehsalının dəstəklənməsini nəzərdə tutur. Bəs, bu avtomobillərin qiymətinə təsir edəcək? SİA mövzu ilə bağlı iqtisadçı və nəqliyyat məsələləri üzrə ekspertlərin fikirlərini öyrənib.

İqtisadçı ekspert Samir Heydərov: "Prezident İlham Əliyevin apardığı uğurlu iqtisadi siyasət nəticəsində 10 ildən çoxdur ki, Azərbaycanda avtomobil istehsalına başlanılıb. Belə ki, Naxçıvan, Neftçala və Hacıqabulda avtomobillər istehsal olunur.

Pandemiya dönəmində avtomobillərin istehsal tempi aşağı olsa da 2023-cü ilin yanvar-fevral aylarında Azərbaycanda 456 ədəd minik avtomobili istehsal edilib. Dövlət Statistika Komitəsinin aylıq hesabatına əsasən 2022 ci ilin eyni dövrü ilə müqayisədə minik avtomobillərinin istehsalı 64.6% artıb. İstehsal artımı ilə yanaşı yığılan hazır avtomobillərin anbarlardakı sayı iki ayda yığılan hazır avtomobillərin sayından çoxdur. Hazır avtomobillər 2023-cü ilin martın 1-nə olan statistikaya görə 465 ədəd təşkil edir.



Bütün bunları nəzərə alaraq avtomobil istehsalının artım tempini daha da sürətləndirmək üçün hökumət 2023-cü ilin mayın 1-dən Azərbaycanda istehsal olunan avtomobillər üçün ƏDV-nin tətbiqini 10 il müddətinə dayandırır. Bu addım yerli avtomobil istehsalını daha da canlandıraraq həm istehsalın həcmini artıracaq, həm də yerli avtomobillərin qiymətinin aşağı düşməsinə səbəb olaraq onların rəqabət qabiliyyətini artıracaq. Satış həcminin artması məşğulluq səviyyəsini artıracaq və bu sahədə çalışan işçilərin əmək haqlarının artmasına səbəb olacaqdır".

Nəqliyyat məsələləri üzrə ekspert Eldəniz Cəfərov: "Azərbaycanda istehsal olunan avtomobillərin ƏDV-dən azad olunması çox böyük addımdır. Buradan belə nəticəyə gəlirik ki, dövlət vətəndaşlar üçün nəqliyyat vasitələrinin əlçatanlığını bir qədər də artırmaq istiqamətində işlər aparır.

Azərbaycan Respublikasının Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyasının alt qrupunda xüsusi bir yol xəritəsi hazırlanmışdı. O yol xəritəsi əsasında ölkəmizə idxal olunan yeni ekoloji təmiz nəqliyyat vasitələri ƏDV-dən azad edildi. Daha sonra elektromobillər ümumiyyətlə gömrük rüsumlarından azad edildi. Bunu etməkdə əsas məqsəd vətəndaşların bu növ avtomobillərə marağını artırmaq, onların ölkəmizə gətirilməsini və ölkədaxili satılmasını stimullaşdırmaq idi. Bu da öz bəhrəsini verdi. Belə ki, bu gün Azərbaycanda ekoloji təmiz nəqliyyat vasitələrinə böyük maraq var. Vətəndaşlar avtomobil alarkən ilk növbədə bu avtomobillərlə maraqlanırlar.

Hibrid avtomobillər də xüsusən çox populyardır. 2023-cü ildən elektromobillərə də maraq getdikcə artır. Elektromobillərin infrastrukturu olan elektrikdoldurma məntəqələrinin sayının artırılması istiqamətində işlər görülür. Ötən il ərzində ölkəmizə elektrikdoldurma məntəqələrinin yaradılması üçün lazım olan elektrik cihazları avadanlıqlarının idxalı da gömrük rüsumlarından tamamilə azad edilib.

Bu addımlar yeni avtomobillərin qiymətlərinin enməsinə və vətəndaşlar üçün daha əlçatan olmasına gətirib çıxaracaq. Burada məqsədlərdən biri odur ki, ölkənin köhnəlmiş avtomobil parkı yenilənsin və Azərbaycan ekosistemi yaxşılaşdırılsın.

Sadəcə bu gün hələlik ölkəmizdə il ərzində 2 minə qədər minik avtomobili istehsal olunur. Bu avtomobillər çox rahatlıqla satılır. Qiymət tərəfdən də çox cəlbedicidir. Amma son dövrlər ərzində müşahidə edirik ki, dövlət iri avtomobil sənayesi ölkələri ilə müəyyən müqavilələr imzalayır, araşdırma və təhlillər aparılır. Son belə müqavilələrdən biri Özbəkistanla bağlanmışdı. Müqavilənin şərtlərinə görə, Özbəkistanda istehsal olunan avtomobillər üçün Azərbaycanda etiyat hissələri istehsal olunacaq. Sonrakı mərhələdə isə güman etmək olar ki, həmin avtomobillər artıq Azərbaycanda da istehsal olunacaq.

Qiymətlərə təsir isə indiki dövrdə hələ olmayacaq. Dediyim kimi, ölkəmizdə ilə 2 minə yaxın avtomobil istehsal olunur. Amma Azərbaycanın illik tələbatı ən azı 60 min avtomobildir. Yaxın perspektivdə, əgər ölkəmizdə 10 min avtomobil istehsal olunsa, bu Azərbaycan avtomobil bazarına təsir edər. Çünki bu avtomobillər daha ucuz, daha cəlbedici və münasib olacaq ki, vətəndaşlar da belə avtomobillərə üstünlük verir".

*A.Vəli*

# Fiqo: "İnter" favoritimdir



Portuqaliya futbolunun canlı əfsanələrindən sayılan Luiş Fiqo UEFA Çempionlar Liqasının finalı və İstanbulun "Qalatasaray" futbol klubu barəsində maraqlı açıqlamalarla çıxış edib. İyunun 1-da İstanbulun Olimpiya stadionunda keçiriləcək "Mançester Siti"-"İnter" qarşılaşması barədə danışan "İnter"in keçmiş futbolçusu L.Fiqo bildirib ki, hər kəs bu oyunda İngiltərə təmsilçisini avorit görür, amma unudurlar ki, "İnter" UEFA Çempionlar Liqasında olduqca böyük təcrübəsi olan komandadır. "İnter"in bir neçə gün öncə İtaliya Kubokunu qazandığına diqqət çəkən L.Fiqo, olduqca hazır formada olan İtaliya klubunun ingilis təmsilçisini məğlub edəcək gücə sahib olduğunu iddia edib.

L.Fiqo həmçinin "Qalatasaray" barədə də danışıb. İstanbul nəhənginin artıq çempionluğunu rəsmiləşdirmək üzrə olduğunu deyərək, "Com-bom"un yeni mövsümdə güclü heyət quraraq Çempionlar Liqasında yaxşı nəticə göstərə biləcəyini deyib.

# Gələn ay ardıcıl 7 gün tətil olacaq



Gələn ay üçün iki iş və qeyri-iş günlərinin yerləri dəyişdirilib. SİA xəbər verir ki, bununla bağlı Baş nazir Əli Əsədov qərar imzalayıb. Qərara əsasən, iş və istirahət günlərinin ardıcıllığını təmin etmək məqsədilə 2023-cü ilin 27 və 30 iyun iş günləri ilə müvafiq olaraq 24 və 25 iyun istirahət günlərinin yerləri dəyişdirilib.

Beləliklə, iyunun 24-ü (şənbə) və iyunun 25-i (bazar) iş günləri, iyunun 26, 27, 28, 29 və 30-u qeyri-iş günləri olacaq. Növbəti iki gün 1 və 2 iyul isə şənbə və bazar günlərinə təsadüf etdiyindən ardıcıl olaraq 7 qeyri-iş günü olacaq. Qeyd edək ki, 26 iyun Azərbaycanın Silahlı Qüvvələri Günü, 28 və 29 iyun isə Qurban bayramıdır.


*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.**

**Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az**

"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR

**Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

**Tiraj: 4000**